RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 190 (9069) BAZAR, 4 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İlham ƏLİYEV: “Sözümüzün imzamız qədər qüvvəsi var”

### Azərbaycan Prezidenti Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Boncorniyə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

***Roberto Boncorni: Sabahınız xeyir, cənab Prezident. Bizi qəbul etdiyinizə görə sağ olun. Son görüşümüzdən sonra bir çox dəyişikliklər baş verib və biz regionda dinamikanı anlamağa çalışırıq.***

**Prezident İlham ƏLİYEV:** Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm. Mən İtaliyaya Brüsseldən gəldim. Orada mənim, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüşümüz oldu. Biz razılığa gəldik ki, bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər.

→ 2



## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sıra fərman və sərəncam imzalayıb

→ 3

# “Biz öz tərəfdaşlarımızın ehtiyaclarını qarşılamaq üçün əlimizdən gələni etməyə çalışacağıq”



**Avropanın Azərbaycan qazına tələbatı getdikcə artır. Təsadüfi deyil ki, bu il sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda Prezident İlham Əliyevin çıxışı bu mövzuya həsr olunmuşdu və məhz belə adlanırdı: "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu".**

Ölkəmizin enerji təhlükəsizliyindəki mühüm fəaliyyəti "Əsrin müqaviləsi" çərçivəsində çıxarılan nefti nəql etmək üçün Bakıdan Novorossiykə və Ceyhana qədər çəkdiyi ixrac boru kəmərlərindən başlandı. Elə burada qeyd edək ki, uzun illərdir Azərbaycan İtaliyanı neftlə təchiz edən bir nömrəli ölkədir. 2006-cı ilin yayında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinin nəql etdiyi neftlə yüklənmiş ilk tankerin İtaliyaya yola salınması da təbii və qanunauyğun bir hadisə idi.

Xəzərin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağının işlənməsi ilə ölkəmizin enerji strategiyası şaxələndi. Təsdiq edilmiş qaz ehtiyatlarımız ümumilikdə 2,6 trilyon kubmetrə bərabərdir. Bu da Azərbaycanı son 10 il ərzində qonşu ölkələr bazarında etibarlı təchizatçıya çevirib. Başqa sözlə, bu, Azərbaycandan İtaliyaya, Xəzərin sahilindən Adriatik dənizinin sahilinədək uzanan "Cənub qaz dəhlizi"ni çəkməyə imkan verib. Dəhliz üç boru kəmərini birləşdirir.

→ 4



## Dövlət başçıları Cənubi Qafqazda cari vəziyyəti müzakirə ediblər

Sentyabrın 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Cənubi Qafqazda cari vəziyyət hərtərəfli müzakirə edilib. Ermənistan-Azərbaycan sərhədində sabitliyin və təhlükəsizliyin təmin edilməsi, regionda iqtisadi və nəqliyyat əlaqələrinin nizamlanması üzrə əlaqələndirilmiş səylərin vacibliyi qeyd olunub. Bu baxımdan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli əsas üçtərəfli razılaşmalarının ardıcıl olaraq reallaşdırılması əzmi təsdiq edilib.

Prezident İlham Əliyev avqustun 31-də Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşü barədə məlumat verib.

Telefon danışığı əsnasında ikitərəfli gündəliyin bəzi praktiki məsələləri, o cümlədən iqtisadi-ticari, energetika və humanitar sahələrə aid məsələlər də nəzərdən keçirilib.

Təmasların davam etdiriləcəyi qeyd olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan beynəlxalq idman tədbirlərinə yüksək səviyyədə evsahibliyi edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Dünya və Avropa Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə, o cümlədən karate növünə dövlət səviyyəsində dəstək göstərildiyi və ölkəmizin idman sahəsində əldə etdiyi nailiyyətlər qeyd olundu.

→ 3

## Azərbaycanla İtaliya arasında təhsil əlaqələri genişlənir

Azərbaycan-İtaliya arasında münasibətlər yüksələn xətt üzrə inkişaf etdir. Avropa İttifaqının vacib dövlətlərindən olan İtaliya ilə əlaqələrin inkişafı təbii ki, siyasi dialoqun nəticəsidir. Bunda diplomatik münasibətlərin də xüsusi yeri var.

Ölkələrimiz arasında diplomatik münasibətlər 30 illik tarixi əhatə edir. 1992-ci il may ayının 8-də qurulmuş diplomatik əlaqələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yüksələn xətlə inkişaf edib.

Azərbaycan və İtaliya əlaqələri möhkəm əsaslara söykənmiş münasibətlərə, qarşılıqlı faydalı əməkdaşlığa söykənir. İndi İtaliya Azərbaycanın ən etibarlı strateji tərəfdaşıdır. İki ölkənin təhsil müəssisələri, elmi-akademik çevrələri arasında da əlaqələr genişlənmişdir və bu gün İtaliyanın müxtəlif universitetlərində mindən çox azərbaycanlı tələbə təhsil alır. Ölkələrimiz arasında yüksəksəviyyəli siyasi dialoqun davam etdirilməsi, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, eyni zamanda mədəniyyət, elm, təhsil, humanitar sahələrdə önəmli mübadilələrin və layihələrin həyata keçirilməsi ilə də müşayiət olunmuşdur. Təhsil sahəsində əməkdaşlıq Azərbaycan və İtaliya arasında tərəfdaşlığın mühüm tərkib hissəsidir. Bu gün iki dost ölkə arasında bu sahədə əlaqələr uğurla inkişaf edir. Belə ki, elmi-akademik çevrələri, ali təhsil ocaqları arasında mübadilələr intensiv xarakter alıb. Onu da vurğulayaq ki, İtaliya dünyada rəqabətə davamlı və yüksək səviyyədə ixtisaslaşmış ali təhsil məkanı kimi tanınır.

→ 4

## Erməni vandallarının gerçək üzü

### Qarabağ müharibəsində itkin düşən azərbaycanlıların şəxsiyyətlərinin müəyyənləşdirilməsi istiqamətində işlər davam etdirilir

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyatdadır. Onların taleyi ilə bağlı hələ də məlumat yoxdur. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. 44 günlük Vətən müharibəsində isə 6 hərbçi itkinimiz var.

Ermənilər Birinci Qarabağ müharibəsində hərbi cinayətlər törətməklə yanaşı, sonrakı 30 il ərzində də öz vandal xislətlərindən əl çəkməyib, bacardıqları bütün eybəcərlikləri həyata keçiriblər. Bu günə qədər itkin düşmüş şəxslər barəsində heç bir məlumat verməyən Ermənistan, eyni zamanda vəhşiliklərini də göstərib, qətlə yetirdikləri insanları kütləvi şəkildə basdırıblar. Vətən müharibəsindən sonra Kəlbəcərdə Başlıbel kəndində, Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində kütləvi məzarlıqlar aşkar edilib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə, Birinci Qarabağ müharibəsi zamanı əsir-girovluqda olmuş şəxslərin şahid ifadələrinə uyğun olaraq aparılan axtarış-araşdırma tədbirləri nəticəsində ortaya çıxarılan kütləvi məzarlıqlarda iş aparmaq üçün aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət heyət ekshumasiya işlərinin aparılması prosesinə cəlb edilmişdi.

→ 4

## Dünyanın işıqlı gələcəyi "yaşıl enerji"dən asılıdır



→ 5

# İlham ƏLİYEV: "Sözümüzün imzamız qədər qüvvəsi var"

## Azərbaycan Prezidenti Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib

*Əvvəli 1-ci səh.*

Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu. Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi. Əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq. Zaman çərçivəsi və məzmun nədən ibarət olacaq. Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib.

***- Yəni bu, iki ölkəni və bütün regionu birləşdirən infrastrukturun yaradılması istiqamətində çox vacib addım ola bilər.***

- Tamamilə haqlısınız. Azərbaycan, Ermənistan və digər qonşularımızı birləşdirən infrastrukturun yaradılması məsələsi müharibənin bitməsindən sonra imzalanmış üçtərəfli Bəyanatda öz əksini tapıb. Azərbaycan azad olunmuş ərazilərdə artıq irimiqyaslı infrastruktur layihələrinin icrasına başlayıb. Biz birinci beynəlxalq hava limanını istifadəyə vermişik. İkinci beynəlxalq hava limanının uçuş-enmə zolağı artıq fəaliyyət göstərir və tezliklə hava limanının açılışı olacaqdır. Biz elektrik stansiyaları tikmişik və elektrik xətləri çəkmişik. Avtomobil yolları, tunellər, körpülər və dəmir yolları inşa edirik. Bütün işlər gedir və biz bu işləri yalnız qonşular ilə bağlılığı təmin etmək və daxili istifadə üçün görmürük. Bu səylər həmçinin Ermənistan vasitəsilə Azərbaycanı özünün Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin icrasına yönəldilib.

***- İcazə verin, qaz məsələsinə keçək. Çünki bu, vacib məsələdir. Avropa Rusiyanın təbii ehtiyatlarından asılılığına son qoymağa çalışır. Siz qeyd etdiniz ki, iyul ayında Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə görüşdünüz və Azərbaycandan Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılması, sərmayə qoyuluşu ilə bağlı anlaşma memorandumu imzaladınız. Burada söhbət 2027-ci ilədək ixracın 10 milyarddan 20 milyard kubmetrə çatdırılmasından gedir. Cənab Prezident, bu, mühüm addımdır. Lakin bu, Rusiyanın Avropaya ixracı ilə müqayisədə kiçik həcmdir. Çünki 2021-ci ildə Rusiya Avropaya 155 milyard kubmetr qaz nəql edib. Sizin rəhbərliyinizlə Azərbaycan həcmi artırmaq baxımından Avropanın digər hissələrinə qaz nəql etmək məqsədilə hər hansı əlavə layihələri nəzərdən keçirirmi? Buna böyük ehtiyac var.***

- Bəli, mən bunu anlayıram. Biz hazırda sərmayə qoyuluşu baxımından yeni imkanlar və planları nəzərdən keçiririk. Ancaq sizin istinad etdiyiniz vəziyyət olduqca yenidir. Heç kəs buna hazır deyildi. Bizim bütün enerji layihələrimiz, o cümlədən təbii qazın nəqli ilə bağlı olan layihələrimiz mövcud həcmlərə əsaslanıb. Biz Azərbaycandan qaz alan Avropa şirkətləri ilə müqavilələri uzun illər əvvəl imzalamışıq. Daha sonra biz boru kəmərlərinə sərmayə qoyduq. Biz Avropaya yalnız bir il yarım əvvəl qaz nəql etməyə başladıq. 2021-ci ilin ilk günündə biz İtaliyaya qaz nəql etməyə başladıq. Beləliklə, bizim nəzərdə tutduğumuz planlar tam şəkildə həyata keçirilib.

Xanım Ursula Fon der Lyayen ilə istinad etdiyiniz görüşə gəldikdə isə, biz hasilatı qısa zamanda artırmaq məsələsini müzakirə etdik. Avropaya ixracı iki dəfə artırmaq böyük işdir. Bu, xırda məsələ deyil. Buraya sərmayə yatırılmalı, texniki imkanlar genişləndirilməlidir. Çünki hazırda Avropaya qaz nəql edən boru kəmərimiz TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir. Yəni biz onu 20 milyard kubmetrə çatdırmalıyıq. Bu isə maliyyə vəsaiti və səhmdarlar arasında razılıq tələb edir və bu, bir prosesdir.

Bizim ehtiyatlarımıza gəldikdə, mən konfransda bu haqda danışdım. Təsdiq edilmiş ehtiyatlarımızın həcmi ən azı 2,6 trilyon kubmetr qaz təşkil edir. Potensial olaraq biz Avropaya 20 milyard kubmetrdən artıq da qaz ixrac edə bilərik. Lakın biz anlamalıyıq ki, Avropa bizim üçün yeganə bazar deyil. Biz Türkiyəni İtaliya ilə eyni həcmdə qazla təchiz edirik. İxrac 10 milyard kubmetr təşkil edir və Türkiyə bazarının tələbatı da artmaqdadır. Bazar o qədər böyük olmasa da, biz Gürcüstanı da qazla təchiz edirik. Bizim bu il ümumi ixracımız 22-23 milyard kubmetr təşkil edəcək. Ancaq hasilatı artırmaq üçün yataqlara böyük sərmayə qoyulmalı və texniki imkanlar genişləndirilməlidir. Söhbət təkcə TAP-dan getmir. Biz TANAP-ı genişləndirməliyik. Biz TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirməliyik. Bəli, bunun üçün bizə yeni kəmər tikmək lazım olmayacaq. Bizə yalnız kompressor stansiyalarının istifadəyə verilməsi lazım olacaq. Bu isə sərmayə gözləyir.

Bir mühüm məqamı da qeyd etməliyəm ki, biz nə əvvəllər, nə də indi öz qarşımıza Avropa bazarında Rusiya qazı ilə rəqabətə girmək kimi hədəf qoymamışıq. Bizim öz yerimiz var. Biz Avropanın üç ölkəsi ilə, yəni İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələr imzalamışıq. Avropanın digər ölkələrinin də tələbatı var və biz həmin tələbatı qiymətləndiririk. Sizin də qeyd etdiyiniz kimi, digər layihələr də var. Məsələn, Balkan dövlətlərinə qədər uzanan İon-Adriatik kəməri, tezliklə istifadəyə veriləcək Yunanıstan-Bolqarıstan interkonnektoru və digər interkonnektorlar. Ancaq bütün bunlar masanın üzərində bir pazlı xatırladır. Bizim potensial istehlakçılarla fəal dialoq aparmağımız, sərmayədarlarla, maraqlı tərəflərlə həm istehsalat, həm də distribütor işlərində, həmçinin qiymətlə bağlı danışıqlar aparmaq kimi qarşımızda görüləsi çox iş dayanır.



***- Cənab Prezident, icazə verin, Sizə uzunmüddətli perspektivlə bağlı sual verim. Ölkənizin potensialı çox genişdir və o, mühüm strateji mövqeyə malikdir. Məsələn, 30 illik mübahisədən sonra, 2021-ci ildə Siz Türkmənistanla Xəzər dənizində "Dostluq" qaz yatağının işlənməsi ilə bağlı müqavilə imzalamısınız. Siz, məsələn, trans-Xəzər kəmərinin tikintisini nəzərdən keçirirsinizmi? Çünki bununla siz Qazaxıstanın və Türkmənistanın qaz yataqlarını birləşdirərək təkcə Avropa deyil, bütün region üçün misilsiz bir qaz qovşağına çevrilə bilərsiniz.***

- Bəli, siz haqlısınız. Mən Azərbaycanın Türkmənistanla "Dostluq" yatağının birgə işlənilməsi qərarını tarixi qərar kimi dəyərləndirirəm. Çünki biz hər iki ölkənin milli maraqlarına, qardaşlıq münasibətlərimizə əsaslanaraq bu qərarı vermişik. İndi bizim qarşımızda bu yatağın işlənilməsinə başlanması kimi hədəf dayanır. Bu, qaz deyil, əsasən neft yatağıdır.

Trans-Xəzər layihəsi ilə bağlı sualınıza gəldikdə isə, bu layihə uzun illərdir ki, müzakirə olunur. Bu məsələnin 15 ildir müzakirə olunduğunu xatırlayıram. Amma praktiki nöqteyi-nəzərdən heç bir addım atılmayıb. Biz "Cənub qaz dəhlizi"nin tikintisi ilə bağlı təşəbbüs irəli sürdükdə aparıcı rolu öz üzərimizə götürdük, biz komanda yaratdıq, xarici dövlətlərlə, istehlakçılarla, şirkətlərlə danışıqlar apardıq. Biz həmçinin əsas investor idik. Bakıdan Ceyhana qədər kəmərin tikintisi zamanı da belə oldu. Onu demək istəyirəm ki, bu layihənin təşəbbüskarı tranzit ölkələr deyil, resursların sahibləridir. Tranzit ölkələr yalnız dəstək verə, ərazi təmin edə və ya ortaq sərmayədar, yaxud tranzit haqlarını qəbul edənlər ola bilərlər. Başqa sözlə desək, trans-Xəzər kəməri Azərbaycanın layihəsi deyil. Bizim neft və qaz layihələrimizə gəldikdə isə, onların hamısı icra olunmuşdur. Biz indi elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəni icra edirik. Ancaq trans-Xəzər layihəsi isə Türkmənistanın resurslarına əsaslanır. Ona görə də əgər Türkmənistan hökuməti trans-Xəzər kəmərini tikmək qərarına gələrsə, bu, onların qərarı olacaq. Əgər onlar belə bir qərar verərlərsə, əlbəttə ki, biz onları dəstəkləyəcəyik. Ancaq burada biz təşəbbüskar olmayacağıq.

***- Azərbaycan kiçik, lakin müasir dövlətdir və üç güclü regional dövlətin - Sizin güclü müttəfiqiniz olan Türkiyə, Rusiya və İranın əhatəsində yerləşir. Həmişə balansı qoruyub saxlamağa müvəffəq olmusunuz. Lakin son altı ayda vəziyyət köklü şəkildə dəyişib və Siz qazla bağlı Avropaya daha da yaxınlaşırsınız. Siz Rusiya tərəfindən hərbi deyil, kommersiya və diplomatik sahələrdə hər hansı təzyiqlə üzləşirsinizmi?***

- Xeyr, qətiyyən yox. Bunun səbəbi odur ki, bizim regiondakı münasibətlərimiz çox yaxşı balanslaşdırılmışdır, onların öz dinamikası var. Bizim hər bir qonşu ilə xüsusi ikitərəfli əməkdaşlıq gündəliyimiz var və bu gündəlik bütün qonşularla fərqlidir. Biz hər bir qonşumuzla ədalətli və səmimi davranırıq, heç vaxt vədimizi pozmuruq. Əgər nəyisə deyiriksə, qonşularımız əmin olurlar ki, biz onu edəcəyik. Bizim sözümüzün imzamız qədər qüvvəsi var. Ona görə də bu çətin vəziyyətdə biz nə Rusiyadan, nə də İrandan mövqeyimizlə bağlı hər hansı mesaj almamışıq. Bizim mövqeyimiz çox sadədir. Biz hər bir dövlətin ərazi bütövlüyünü daim dəstəkləyirik və bu, fundamental mövqedir. Bəli, bu, bizim öz problemimizə əsaslanırdı. Çünki bizim ərazi bütövlüyümüz pozulmuşdu və biz indi ərazi bütövlüyümüzü bərpa etdikdən sonra da bu mövqedəyik. Çünki ölkənin ərazi bütövlüyü zor tətbiq edilərək pozula bilməz, bu, beynəlxalq hüququn pozulmasıdır. Bu mövqe kiminsə xoşuna gələ bilər, kiminsə yox, ancaq onlar bunu nəzərə almalıdırlar. Qısa olaraq demək istəyirəm ki, bizim regional inkişafla bağlı narahatçılıq yaradan heç bir məqamımız yoxdur.

Siz Türkiyənin bizim müttəfiqimiz olduğunu dediniz. Türkiyə qlobal səviyyədə güclü dövlətdir və əlbəttə ki, bizim keçən il Türkiyə ilə imzaladığımız müttəfiqlik haqqında Bəyannamə regional sabitlik üçün çox əhəmiyyətli amildir. Türkiyənin Azərbaycana həm siyasi, həm də mənəvi dəstək göstərdiyi İkinci Qarabağ müharibəsi bitəndən sonra bizim münasibətlərimiz daha da gücləndi. Beləliklə, bu, çox mühüm amildir. Türkiyə və Azərbaycan regionda bir çox məsələlərlə bağlı demək olar ki, vahid komanda kimi hərəkət edir. Bu da hamı tərəfindən nəzərə alınmalıdır.

***- Gəlin, mövzumuzu iqtisadiyyata yönəldək. Düşünürəm ki, bu gün Azərbaycan enerjidən çox gəlir əldə edir. Ancaq Siz qeyd etmisiniz ki, iqtisadiyyatın şaxələndirilməsi ölkəniz üçün başlıca prioritetdir. Bu proses necə gedir? Belə görünür ki, bu proses Sizin təsəvvür etdiyiniz kimi getmir?***

- Gəlirlərlə bağlı onu demək istəyirəm ki, belə bir ümumi fikir var: yüksək neft qiymətləri ixracatçılara həddindən artıq əlavə sərvət gətirir. Bəli, bu, doğrudur. Bizim gəlirlərimiz artıb. Ancaq eyni zamanda biz kapital bazarlarında pul itirmişik, çünki bizim Dövlət Neft Fondunun sərvətləri müxtəlif alətlərdədir. Kapital bazarı çöküb. Ona görə də biz digər suveren fondlar kimi pul itirmişik, ancaq elə də çox pul itirməmişik. Bəzi suveren fondlar 100 milyard dollardan çox vəsait itiriblər. Biz 2-3 milyard dollar itirmişik.

Şaxələndirməyə gəldikdə isə, əlbəttə ki, ixracımızı şaxələndirməyimizdən asılı olmayaraq, bizim qeyri-neft və qeyri-qaz ixracımız neft və qaz ixracına uyğun gəlməyəcək. Çünki neft və qaz ixracı artır. Məsələn, keçən il biz İtaliyaya 9,6 milyard dollar, bu ilin 7 ayında isə 11 milyard dollar həcmində təbii qaz ixrac etmişik. Qazın qiyməti düşdü. Beləliklə, şaxələndirmə bizim üçün ümumi daxili məhsulda öz əksini tapan statistika deyil, o, xalqımız üçün iş yerləri təmin etmək və yaxşı həyat şəraiti yaratmaq deməkdir. Məsələn, bu ilin altı ayındakı ümumi daxili məhsulumuza baxsanız, nə görəcəksiniz? Ümumi daxili məhsul 6,2, qeyri-enerji sektorunda isə demək olar ki, 10 faiz, qeyri-enerji ilə bağlı sənayedə isə 11 faizdən çox artıb, qeyri-enerji ixracı 25 faiz artıb. Beləliklə, bu göstərir ki, artım göz qabağındadır, ancaq bu, kifayət deyil. Buna görə də bizim daha çox islahatlara, qeyri-enerji sektorunda daha çox sərmayəyə və bunun üçün də, əlbəttə ki, biznes mühitinə ehtiyacımız var. Əlbəttə ki, o sahədə irəliləyişlər var. Lakin bütün bu bürokratik maneələri və keçmiş sovet dövrünün psixoloji mirasını aradan qaldırmaq üçün hələ də çox iş görməliyik.

***- Əlbəttə, Siz azad olunmuş əraziləri yenidən qurmalısınız. Azad olunmuş ərazilərdə işlərin şaxələndirilməsində İtaliya şirkətlərinin ölkənizə kömək etməsi üçün yeni müqavilələr imzalana bilərmi?***

- İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər. İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Türkiyə şirkətlərinin birinci yerdə olması təbiidir. Çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların məşhur tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləridir. Mən sizə misal göstərə bilərəm. Məsələn, bizim Memorial və Zəfər muzeylərimiz təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib.

***- Yaşıl enerjidən bəhs edirsiniz?***

- Bu, hidroenerjidir. Şirkətin adı "Ansaldo"dur. Daha bir İtaliya şirkəti bizim xahişimizlə Şuşada yeni məscidin layihəsini dizayn edib və onu icra edəcək. Beləliklə, bu, bizim münasibətlərimizin nə dərəcədə yaxın olduğunu göstərir. Çünki Şuşa hər bir azərbaycanlı üçün müqəddəs məkandır. Şuşada tikiləcək yeni məscidin layihəsi İtaliya şirkətinə həvalə olunub. Bu o deməkdir ki, bizim aramızda çox yüksək dərəcədə etimad var və bu addımı atmışıq. Bizim böyük planlarımız da var. Məsələn, bərpaolunan - külək, günəş və su-elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planlarımız var. Dünən baş nazirlə görüşüm zamanı biz İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyərini nəzərdən keçirdik. Həmin müqavilələrin dəyəri on milyard dollardan çoxdur. Beləliklə, İtaliya Azərbaycanda yaxşı təmsil olunub. Lakin əminəm ki, işğaldan azad olunan bölgələrdə Türkiyədən sonra öz ikinciliyini bütün yenidənqurma prosesi zamanı qoruyub saxlayacaq.

***- Dünən Sercio Mattarella ilə çox yaxşı görüşünüz oldu. Bu, ilk görüşünüz deyildi. Çoxşaxəli strateji tərəfdaşlıqla bağlı nə deyə bilərsiniz?***

- Tərəfdaşlığımız uğurla həyata keçirilir. Bizim ikitərəfli gündəliyimiz getdikcə genişlənir. Təbii ki, bunun əsas hissəsini enerji və ticarət təşkil edir. Lakin bunlar yeganə mövzular deyil. Dünən səfirliyimizin yeni binasında biz İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı sənədlərin mübadiləsinə həsr edilmiş gözəl mərasimin şahidi olduq. Bunlar ADA Universiteti və İtaliyanın beş universiteti - Luiss Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti, Bolonya Universiteti və Romanın Sapienza Universitetidir. Gözəl məkanda yerləşən universitet binası inşa edilməkdədir və 2024-cü ilin sonunadək hazır olacaq.

Biz Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığı çərçivəsində fəal əməkdaşlıq edirik. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə yaxınlaşmasını güclü şəkildə dəstəkləyib. İtaliya hər zaman bizim NATO ilə daha sıx əməkdaşlıq qurmaq səylərimizi dəstəkləyib. Əlbəttə, bu gün Bakını İtaliya sahilləri ilə birləşdirən 3500 kilometrlik enerji körpüsü enerji təhlükəsizliyi körpüsüdür. Bu, təkcə İtaliyaya şamil edilmir. Əminəm ki, İtaliya Azərbaycanın karbohidrogen resurslarını Avropanın digər yerlərinə ötürəcək ölkə olacaqdır.

Beləliklə, burada enerji seqmenti, iqtisadiyyat və ticarətin inkişafı mövzuları var. İtaliya bizim əsas ticarət tərəfdaşımızdır. Bundan başqa, təhsil, mədəniyyət və bir sıra digər sahələr var. Yəni strateji tərəfdaşlıqla bağlı bəyanat fəaliyyətdədir.

***- Sonuncu qısa sual. Rusiya ilə bağlı bütün çətinliklərin fonunda yeni İpək yolunun Xəzər üzərindən keçməsi və zəruri infrastruktur olduğu halda ölkəniz kommersiya mərkəzinə çevrilə bilər. Bu haqda nə vaxtsa düşünə bilərdiniz?***

- Bəli, siz haqlısınız. Biz bunun üzərində illər öncə çalışmağa başlamışıq. Biz Xəzər dənizində ən böyük ticarət limanı inşa etmişik. Bu gün o tam gücü ilə çalışır və biz artıq onu genişləndirməliyik. O, 25 milyon ton yük və 1 milyon konteyner qəbul etmək imkanına malik olmalıdır. Biz Bakıda gəmiqayırma zavodu inşa etmişik. Biz Xəzər dənizinin şərq sahillərindən neft və digər yük daşıyan hər növ gəmilər inşa edə bilirik. Biz dəmir və avtomobil yolları tikmişik. Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə ixrac artmaqdadır və zənnimcə, artım 20 faiz səviyyəsindədir.

Bütün bu işlər Rusiya-Ukrayna müharibəsindən əvvəl görülüb. Rusiya-Ukrayna müharibəsi Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal oldu ki, bu marşrut daha da yaxından nəzərdən keçirilməlidir. Biz isə yaxşı tariflər təklif edir və bütün zəruri logistika dəstəyi təmin edirik. Yəni açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir - təkcə şərqdən cənuba və geriyə deyil, həmçinin şimaldan cənuba. "Cənub-Şimal" nəqliyyat dəhlizi Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmirmir. Yəni Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün ən cəlbedici olur. Bunu Fars körfəzindən Azərbaycan vasitəsilə Rusiyaya uzanan marşrut haqqında da demək olar.

Biz iki dəhliz üzərində yerləşirik - "Cənub-Şimal" və "Şərq-Qərb". Əlbəttə, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və yeni iş yerlərinin yaradılmasına imkan verir. Biz "Cənub-Şimal" nəqliyyat dəhlizinin "Şərq-Qərb" dəhlizi qədər vacib olacağı qənaətindəyik. Bizim üçün onlar bərabər dərəcədə əhəmiyyətlidir. Çünki hər iki dəhliz bizim ərazimizdən keçir.

***- Cənab Prezident, nəzakətinizə və ölkənizlə bağlı məlumat verdiyinizə görə Sizə təşəkkür edir, uğurlar diləyirəm.***

- Sağ olun.

# Azərbaycan beynəlxalq idman tədbirlərinə yüksək səviyyədə evsahibliyi edir





*Əvvəli 1-ci səh.*

Karateçilərimizin nüfuzlu beynəlxalq idman yarışlarında, xüsusilə Olimpiya Oyunlarında qazandığı uğurlar vurğulandı.

Görüşdə Bakıda keçirilən Dünya Karate Federasiyasının ən nüfuzlu yarışı olan Karate1 Premyer Liqa turnirinin əhəmiyyətindən söhbət açıldı. Bildirildi ki, bu turnirin keçirilməsi ölkəmizin mühüm beynəlxalq idman tədbirlərinə yüksək səviyyədə evsahibliyi etməsini bir daha göstərir.

Dövlət başçısı Antonio Espinosa Azərbaycan Karate Federasiyasının fəaliyyətinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Söhbət zamanı ölkəmizdə idmanın bu növünə çox sayda gənclərin və uşaqların böyük marağının olduğu məmnunluqla vurğulandı.

## Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2005-ci il 26 dekabr tarixli 341 nömrəli, "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 24 aprel tarixli 613 nömrəli, "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 27 iyun tarixli 756 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110; 2008, № 6, maddə 498; 2013, № 12, maddə 1508; 2014, № 9, maddə 1027; 2016, № 3, maddə 469, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1677; 2022, № 3, maddə 305, № 5, maddə 471) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi"nin "Şuranın üzvləri" hissəsinin dördüncü abzasından "birinci" sözü çıxarılsın.

2. "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 475) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 1-ci hissədə "təhlükəsizliyi üzrə" sözləri "təhlükəsizliyinə dair" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 2.2.14-cü yarımbəndində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047; 2022, № 5, maddə 463) ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 4.2.3-cü yarımbəndində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180; 2022, № 5, maddə 497) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Aparatının Sənaye şöbəsinin müdiri" sözləri "Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" sözləri ilə əvəz edilsin.

2. "Samir Qurbanov - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri" sözləri "Faiq Mütəllimov - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ekoloji siyasət şöbəsinin müdiri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## "1999-cu il 4 iyun tarixli ixtiraların hüquqi mühafizə sahəsində dövlətlərarası sirlərin qorunmasının qarşılıqlı təmin edilməsi haqqında Saziş"in qüvvədən düşməsi barədə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "1999-cu il 4 iyun tarixli ixtiraların hüquqi mühafizə sahəsində dövlətlərarası sirlərin qorunmasının qarşılıqlı təmin edilməsi haqqında Saziş"in qüvvədən düşməsi barədə" Protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## Azərbaycan Respublikasının İtaliya Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının İtaliya Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2006-cı il 20 sentyabr tarixli 1680 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 sentyabr tarixli 1680 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 782; 2009, № 1, maddə 17, № 7, maddə 589; 2012, № 2, maddə 133; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 11, maddə 2091; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 257; 2022, № 5, maddə 535) 1-ci hissəsindən ikinci halda "birinci" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2022-ci il*

## Son dövrlər Azərbaycanın bölgələrində baş verən meşə yanğınları ilə əlaqədar Nazirlər Kabinetində işçi müşavirə keçirilib

Son dövrlər Azərbaycanın bölgələrində baş verən meşə yanğınları ilə əlaqədar sentyabrın 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə işçi müşavirə keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbərləri iştirak ediblər.

Müşavirədə meşə yanğınlarının baş verdiyi ərazilərdə hazırkı vəziyyət, yanğınların səbəbləri, yanğınlarla mübarizə tədbirləri, mürəkkəb relyefli zonalarda yaranan çətinliklər, eyni zamanda qarşıda duran vəzifələr və fəaliyyət müzakirə edilib.

Yanğınla mübarizə tədbirlərinin davam etdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarına və qurumlarına tapşırıqlar verilib.

## İtaliyanın aparıcı KİV-i Prezident İlham Əliyevin bu ölkəyə səfərini geniş işıqlandırıb

İtaliyanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə səfərini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, ölkənin "AGI", "ANSA", "Il Sole 24 Ore", "Askanews", "il Giornale", "Yahoo Notizie", "Giornale Diplomatico", "Kmetro0" və digər mətbu orqanlarında yayılan materiallarda Prezident İlham Əliyevin Romada Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılışında iştirak etdiyi, İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasiminin keçirildiyi bildirilib. Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılmasının iki ölkənin dostluq əlaqələrinin mühüm nümunəsi olduğu vurğulanıb. Eyni zamanda diqqətə çatdırılıb ki, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlər mübadilə edilib.

Prezident İlham Əliyevin həmin gün Romanın Kuirinale Sarayında İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdüyü, görüşdə bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyi bildirilib.

Azərbaycan Prezidentinin İtaliyanın Nazirlər Şurasının Sədri Mario Draqi ilə görüşündə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunduğu vurğulanıb.

Yazılarda Prezident İlham Əliyevin sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda iştirakına da yer verilib.










Həmçinin bildirilib ki, tədbirdən sonra Azərbaycan Prezidenti yerli KİV-ə müsahibə verib. Müsahibədə Prezident İlham Əliyev TAP boru kəməri vasitəsilə İtaliyaya 11,7 milyard kubmetr qazın nəql edildiyini, qarşıdakı illərdə ixracın həcminin 20 milyard kubmetrə çatdırılacağını diqqətə çatdırıb.

## Ermənistan Təhlükəsizlik Şurasının katibinin Xankəndiyə qanunsuz səfəri Ermənistan tərəfinin növbəti təxribatıdır

Sentyabrın 2-də Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər etməsi Ermənistan tərəfinin növbəti təxribatıdır və iki dövlət arasında münasibətlərin normallaşması cəhdlərinə xələl gətirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində bildirilib.

Qeyd olunub ki, Azərbaycan və Ermənistan liderləri arasında Brüsseldə baş tutan növbəti görüşdən dərhal sonra Ermənistan rəsmisi tərəfindən məqsədyönlü şəkildə atılan bu qanunsuz addım görüş zamanı əldə edilmiş razılıqlara kölgə salmaqla yanaşı, Ermənistan tərəfinin normallaşma prosesində səmimi olmadığını açıq nümayiş etdirir.

Bu qanunsuz səfər Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığına, suverenlik və dövlət sərhədləri prinsiplərini qəbul etdiyinə dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir.

Bu, həmçinin rəsmi Yerevan tərəfindən beynəlxalq vasitəçilərin səylərinə hörmətsizlikdir.

Ermənistan rəsmisinin təxribatçı addımını qətiyyətlə qınayırıq. Vurğulayırıq ki, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünə qarşı atılan hər hansı addımlar cavablandırılacaq".

# “Biz öz tərəfdaşlarımızın ehtiyaclarını qarşılamaq üçün əlimizdən gələni etməyə çalışacağıq"

*Əvvəli 1-ci səh.*

Bunlar Azərbaycanın və Gürcüstanın ərazisindən keçən genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), Türkiyədə böyük məsafə qət edən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və mavi yanacağı Avropaya çatdıran TAP (Trans-Adriatik Qaz Boru Kəməri) xətləridir. Dəhlizin uzunluğu 3500 kilometr təşkil edir.

Dövlətimizin başçısı dəhlizin mürəkkəb texniki infrastruktur olduğunu xatırladaraq demişdir: "Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də həmin mühüm layihənin yekun hissəsi olan TAP istifadəyə verildi. Həmin dövrdən etibarən bir il yarımdır ki, Azərbaycan Türkiyə və Gürcüstandan əlavə Avropanın üç ölkəsinə təbii qaz ixrac edən ölkəyə çevrilib. Bir il yarım ərzində artıq Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun 11,7 milyard kubmetri İtaliyanın payına düşür. Bu il biz həcmi artırmağı və İtaliya bazarına 10 milyard kubmetr qaz nəql etməyi planlaşdırırıq. Ümumi ixracımız 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var. Ötən ay Bakıda Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen və mən Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq. Bu, bizim enerji resurslarımızın daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox vacib addımdır. Mən bunu gələcək fəaliyyətimizin yol xəritəsi adlandırdım. Biz Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırırıq və əminəm ki, buna nail olacağıq".



"Azərbaycandan İtaliyaya əlavə qazın nəqli mümkündürmü?" Çıxışından sonra jurnalistlərin suallarını cavablandırarkən Prezident İlham Əliyev bu məsələyə bir daha aydınlıq gətirib: "Əlavə qaz həcmi nəql olunmaqdadır. Bu il bu rəqəm təqribən 10 milyard kubmetr təşkil edəcək. Ötən illə müqayisədə bu, daha çoxdur. Lakin əlavə qaz həcmi üçün biz TAP-ın texniki imkanlarını artırmalıyıq - 10 milyarddan 20 milyard kubmetrə qədər. Nəzərə almaq lazımdır ki, bizim TAP-da payımız yalnız 20 faizdir. Digər səhmdarlar da razılığa gəlməli və birgə sərmayə layihəsini planlaşdırmalıyıq. Bunu isə tezliklə etmək lazımdır. Çünki biz Avropa Komissiyası ilə razılığa gəlmişik ki, 2027-ci ilədək Azərbaycandan Avropa İttifaqına qaz ixracını iki dəfə - 20 milyard kubmetrə qədər artıraq. TAP genişləndirilməsə, bu, mümkün olmayacaq. Beləliklə, biz ilk olaraq bunu etməli, daha sonra isə müqavilələrlə bağlı danışıqlara başlamalıyıq".

Avropaya qaz ixracının ikiqat artırılması üçün vacib addımlar atılmalıdır, yəni siyasi qərarlar verilməli, texniki tədbirlər həyata keçirilməli və sərmayə yönəldilməlidir. Belə ki, "Cənub qaz dəhlizi"nin müxtəlif seqmentlərinin imkanları fərqlidir. TANAP-ın ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. Onu 32 milyard kubmetrə çatdırmaq planlaşdırılır. TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir, hazırda o, tam gücü ilə işləyir, imkanları isə ən azı 20 milyard kubmetrə çatdırılmalıdır. Bu, əlavə maliyyə vəsaiti tələb edir və məsələdə komandanın digər üzvlərinin iştirakı zəruridir.

Prezidentimiz çıxışında eyni zamanda bildirmişdr ki, biz Rusiya-Ukrayna müharibəsi nəticəsində təbii qaz məsələsinin avropalıların gündəliyində ən aktual məsələlərdən biri olduğunu görürük: "Burada interkonnektorlar ilə bağlı müzakirələr gedir və onlardan biri - Yunanıstan-Bolqarıstan interkonnektoru istismara verilməyə yaxındır. Həmin qəbildən olan digər layihələr də var. İonik-Adriatik boru kəməri layihəsi var ki, o, Azərbaycan qazını üç Balkan ölkəsinə çatdıracaq. Ümumiyyətlə, deyə bilərəm ki, Rusiya-Ukrayna müharibəsi başlayandan biz qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan artıq ölkədən rəsmi müraciətlər almışıq. Burada bizdən bu vaxta qədər onsuz da qaz alan ölkələr də var - Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan və digərləri. Beləliklə, artan ehtiyacı təmin etmək üçün bizim sıx əməkdaşlığa və əlaqələndirməyə ehtiyacımız var. Bu məqsədlə biz artıq rəsmi olaraq Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqa start vermişik".

Həm də söhbət təkcə təbii qazdan getmir. Buraya həmçinin enerji bazarının digər seqmentləri, xüsusilə elektrik enerjisi, hidrogen və yaşıl hidrogen də daxildir. Beləliklə, Azərbaycan enerji strategiyasının üçüncü mərhələsinə gəlib çatıb. Bu, bərpaolunan enerji mənbələrinə sərmayənin qoyulmasıdır. Ölkəmiz həmin prosesə hələ bir neçə il əvvəl başlayıb. Artıq bərpaolunan enerji sahələrindəki potensial da dəyərləndirilib. Bunun təkcə Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş potensialı 157 qiqavat təşkil edir. Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur.

Bu mühüm potensialın inkişaf etdirilməsi mərhələsi başlayıb. Belə ki, hazırda Azərbaycanda bərpaolunan enerji layihələri reallaşır. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Perspektivdə yeni layihələrin gerçəkləşməsi dayanır. Bir neçə ay əvvəl Energetika Nazirliyi və bp arasında Cəbrayılda 240 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə bağlı növbəti addımların atılması məqsədilə 2021-ci il iyun ayında bağlanmış İcra Müqaviləsinə Əlavənin imzalanması bunun əyani təsdiqidir.

Prezident İlham Əliyev bildirib ki, bu, bizə ixrac üçün əlavə qaz tədarük etməyə kömək edəcək, ixrac potensialımızı gücləndirəcək. Qaldı ki, elektrik enerjisini Avropaya necə nəql edəcəyimizə, bu barədə dövlətimizin başçısı belə deyib: "Gürcüstan, Türkiyə, Bolqarıstandan keçməklə Avropaya çıxacaq artıq mövcud olan xətt vasitəsilə, yoxsa yeni xətlə? Yoxsa enerji təchizatı üzrə geniş potensialı olan Zəngəzur dəhlizi ilə? Bunlar bizim enerji planlarımızın üç mərhələsidir. Bu, yalnız Avropanı deyil, həmçinin daha geniş sahəni əhatə edəcək. Biz öz tərəfdaşlarımızın ehtiyaclarını qarşılamaq üçün əlimizdən gələni etməyə çalışacağıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Xarici işlər naziri Ceyhun Bayramov UNESCO-nun mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi ilə görüşüb



Sentyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov UNESCO-nun xoşməramlı səfiri və mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi Hedva Seri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Hedva Serin dünyada sülh naminə fəaliyyətini və bu xüsusda həyata keçirdiyi çoxsaylı layihələri məmnunluqla vurğulayıb. O, Azərbaycan və Andorranın UNESCO üzrə Milli komissiyaları, həmçinin Mədəniyyət Nazirliyi tərəfindən Şuşada həyata keçirilən "Youth Art Camp" layihəsinə olan diqqətinə görə Hedva Serə təşəkkürünü ifadə edib. Şuşanın Azərbaycan üçün əhəmiyyətini vurğulayan nazir şəhərin azad edilməsindən sonra burada həyata keçirilən quruculuq işləri, habelə çoxsaylı beynəlxalq əhəmiyyətli tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Azərbaycanın müstəqilliyinin ilk günlərindən təcavüz siyasəti ilə üzləşdiyini, 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə ərazilərini işğaldan azad etdiyini və hazırda beynəlxalq hüquq əsasında münasibətlərin normallaşması və sülhün təmin edilməsi istiqamətində səylər göstərdiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Hedva Ser səmimi görüşə görə təşəkkür edib. O, bu il ərzində Azərbaycana üçüncü səfərini reallaşdırdığını məmnunluqla vurğulayıb. Azərbaycandakı tolerantlıq, müxtəlif dinlərin və etnik qrupların bir arada sülh şəraitində yaşamaq ənənəsini yüksək qiymətləndirdiyini söyləyib. UNESCO-nun Xoşməramlı səfiri və mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi "Sülhə gedən yol" layihəsindən bəhs edərək, Azərbaycanın buna dəstək verdiyini minnətdarlıqla bildirib və bu xüsusda hələ 2015-ci ildə Bakıda müəllifi olduğu sülh abidəsinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın iştirakı ilə ucaldıldığını qeyd edib.

Görüş zamanı Azərbaycan tərəfindən humanitar sahədə, o cümlədən elmin, təhsilin, mədəniyyətin inkişafı istiqamətində görülən işlər, eləcə də inkişaf etməkdə olan ölkələrin tələbələrinə təhsil qrantlarının, habelə bu ölkələrə humanitar yardımların ayrılması və s. barədə fikir mübadiləsi aparılıb.

# Erməni vandallarının gerçək üzü

*Əvvəli 1-ci səh.*

Avqust ayında bir qutu sümük qalıqları Ağdamın Şıxbabalı, 2 qutu sümük qalıqları Kəlbəcərin Zallar, bir qutu sümük qalıqları isə Kəlbəcərin Çıraq kəndində aşkarlanıb. Tapılan sümük qalıqları protokollaşdırılıb. Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov qeyd edib ki, həmin sümük qalıqlarının məhkəmə-tibbi müayinəsi həyata keçiriləcək. O bildirib ki, ümumilikdə Birinci Qarabağ müharibəsi və ondan sonrakı dövrlərdə basdırılmış həmvətənlərimizin 102 kisə sümük qalıqları Patoloji Anatomiya Birliyinə göndərilib: "Həmin sümük qalıqları araşdırılıb. Müəyyən olunub ki, onların içərisində 156 şəxsə aid sümük qalıqları var. Həmin sümük qalıqlarının ümumi sayı isə 10640-dır".

Direktor həmçinin deyib ki, Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən yalnız Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərin skelet qalıqlarının öyrənilməsi, müayinəsi və sonradan saxlanılması üçün xüsusi şəraitə malik yerdə depolar yaradılıb və sümüklər həmin yerdə saxlanılır.

### Birinci Qarabağ müharibəsində itkin düşən şəxslərlə bağlı birgə pilot layihə həyata keçiriləcək

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, işçi qrupunun rəhbəri İsmayıl Axundov Dövlət Komissiyasının və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə Beynəlxalq İtkinlər Gününə həsr edilmiş konfransda çıxışında bildirib ki, 2008-ci ilin aprel ayında BQXK-nın Azərbaycandakı Nümayəndəliyi ilə Dövlət Komissiyası arasında imzalanmış çərçivə sazişinə əsasən, 2014-cü ildən etibarən itkin ailələrindən bioloji (DNT) nümunələrin toplanması işinə başlanıb. Bu müddət ərzində 3315 itkinin ailə üzvlərindən 10309 bioloji nümunə toplanılıb. 2021-ci ilin noyabrından etibarən toplanmış bioloji nümunələrdən DNT profillərinin çıxarılması işinə başlanılıb. Bu məqsədlə hazırkı vaxta qədər 1024 bioloji nümunənin hər biri üzrə profillər çıxarılıb. Hazırda itkinlərin taleyinin müəyyən edilməsinə mane olan əsas faktlar erməni tərəfinin dəfn yerləri barədə məlumatları təqdim etməməsi və işğaldan azad edilmiş ərazilərin minalarla çirklənməsidir.

İsmayıl Axundov əlavə edib ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan sonra həyata keçirilmiş birgə tədbirlər nəticəsində 1713 Ermənistan hərbçisinin meyiti tapılaraq ərazidən götürülüb və qarşı tərəfə təhvil verilib. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına əsasən, Birinci Qarabağ müharibəsi zamanı 776 nəfər, İkinci Qarabağ müharibəsi zamanı isə 345 erməni əsilli şəxs itkin düşmüş hesab edilir. Birinci Qarabağ müharibəsi dövründə 1480 nəfər azərbaycanlı əsir-girovluqdan azad edilib, qarşı tərəfə isə 509 nəfər təhvil verilib. Eyni zamanda qoşunların qarşıdurma xəttində həlak olmuş və əsir-girovluqda ölmüş hər iki tərəfə aid onlarla insanın meyiti BQXK-nın vasitəçiliyi ilə tərəflərə təhvil verilib. Ümumiyyətlə, BQXK-nın iştirakı ilə 650-dən çox bu cür humanitar proses həyata keçirilib.

İşçi Qrupun rəhbəri deyib ki, Vətən müharibəsindən sonra imzalanmış üçtərəfli Bəyanatdan sonra qarşı tərəf Azərbaycana 19 hərbçi, 6 mülki şəxs olmaqla, 25 nəfər təhvil verib. Onlardan 5 nəfəri 27 sentyabr 2020-ci il tarixdən əvvəl saxlanılmış şəxslərdir. Azərbaycan isə 159 nəfər (118 hərbçi, 41 mülki, o cümlədən 5 qadın) erməni əsilli şəxsi azad edib. Onlardan 6 nəfəri 27 sentyabr 2020-ci il tarixdən əvvəl saxlanılmış şəxslərdir.

Qeyd edək ki, hazırda Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyi ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid altı yüksək coğrafi dəqiqlikli məzar yerində insan qalıqlarının ekshumasiyasına dair birgə pilot layihənin həyata keçirilməsi planlaşdırılır.

### Ermənistan kütləvi məzarlıqların yeri barədə məlumatları təqdim etmir

Sonuncu Brüssel görüşündə də humanitar məsələlər, əsir və girov götürülmüş şəxslərin dəyişdirilməsi, Birinci Qarabağ savaşında itkin düşmüş şəxslər ilə bağlı müzakirələr aparılıb.

"Azərbaycan ərazilərinin azad olunması itkin düşmüş şəxslərin axtarışı üçün yeni imkanlar yaradıb. Edilli və Fərruxda kütləvi məzarlıqlar aşkarlanıb. Artıq münaqişə bitib və Azərbaycan Ermənistanla itkin düşmüş şəxslərlə bağlı da danışıqlar aparır. Brüsseldə danışıqların gündəliyinə itkin düşmüş şəxslərlə bağlı məsələ də daxil edilmişdir".

Bu sözləri Prezident Administrasiyasının sektor müdiri Həbib Mikayıl Beynəlxalq İtkinlər Gününə həsr edilmiş "İtkin düşmüş şəxslərin şəxsiyyətinin müəyyən edilməsi - Humanitar yanaşma" mövzusunda konfransda deyib. O bildirib ki, Ermənistan itkin düşmüş şəxslərin kütləvi qətlə yetirilməsi ilə bağlı halların hərbi cinayət kimi xarakterizə oluna biləcəyindən çəkindiyi üçün kütləvi məzarlıqların yeri barədə məlumatları təqdim etmir. Mina problemi də bu məsələlərin araşdırılmasını çətinləşdirir. Gələn aydan BQXK ilə birlikdə addımlar atılacağını deyən sektor müdiri vurğulayıb ki, bu sahədə məhkəmə-tibbi ekspertizasından istifadə olunması labüddür. İtkin düşmüş şəxslərlə bağlı BQXK-nın Azərbaycan və Ermənistanla birgə müştərək mexanizmi bu sahədə effektiv ola bilər. BQXK 37 azərbaycanlı itkini qeydə alıb, ancaq bu itkinlərin sonrakı taleyi hazırda məlum deyil. O, BQXK-nı bu məsələləri araşdırmağa çağırıb və vurğulayıb ki, BMT-nin bu sahədə xüsusi məruzəçisi də ola bilər. Bu məruzəçi tək Azərbaycan və Ermənistan üzrə deyil, ümumən dünyada itkin düşmüş şəxslərlə bağlı məsələ ilə məşğul ola bilər.

### İnsanlıq əleyhinə barbarlıq - cinayətkarlar cəzalandırılacaqlar

Faktlar bir daha göstərir ki, Azərbaycan daim beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərinə sadiq qalaraq əsir düşmüş erməni hərbçilərini geri qaytarır. Eyni zamanda onlarla ləyaqətli davranılaraq qidalanmaları, müalicə hüquqları təmin edilib. Ermənistan tərəfi isə əsir və girovlarla qeyri-insani rəftar etmişdir. Bunun nəticəsidir ki, Birinci Qarabağ savaşında əsir və girovluqdan xilas olmuş şəxslərin bəziləri aldıqları xəsarətlərdən dünyasını dəyişmiş, bəziləri isə psixoloji sarsıntılar nəticəsində müəyyən xəstəliklərə düçar olublar. Hazırda Azərbaycan-Ermənistan münaqişəsi başa çatsa da, qarşı tərəf hələ də itkin düşmüş şəxslərlə bağlı heç bir məlumat vermir. Bununla onlar üzərlərinə götürdüyü öhdəliklərdən boyun qaçırır, beynəlxalq hüquq normalarını daim pozurlar.

Azərbaycan haqq savaşında qalib gələrək ədaləti bərpa etdiyi kimi, bir gün insanlıq və bəşəriyyət əleyhinə cinayət törədənlər də mütləq cəzalarını alacaqlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanla İtaliya arasında təhsil əlaqələri genişlənir

*Əvvəli 1-ci səh.*

İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana 2018-ci il 18-19 iyulda dövlət səfəri zamanı iki ölkənin təhsil nazirlikləri arasında "Ali təhsil üzrə Birgə Bəyannamə" imzalanıb. 2020-ci ilin fevralında imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə"də də təhsil və elm sahəsində əməkdaşlığa dair konkret müddəalar əks olunub. Sercio Mattarellanın ölkəmizə səfəri də bunu bir daha təsdiqlədi və göstərdi ki, ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikası yüksəkdir. Bundan sonra əməkdaşlıq əlaqələri daha da genişlənməyə başladı. Digər tərəfdən, bu səfər həm də regional və beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyət kəsb etdi.

Təhsil sahəsində iki ölkə arasında əldə olunmuş ən əhəmiyyətli nailiyyət isə Prezident İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığın əldə edilməsi ilə qazanıldı. Bakıda təməli qoyulan bu universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universiteti ADA Universitetinin bazasında fəaliyyət göstərəcək. Bu təhsil ocağının təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub.

2022-ci il sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etdi. Tədbirdə sazişlərin mübadiləsi oldu.

Prezident İlham Əliyev bildirdi ki, bu mərasim onu göstərir ki, biz gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcəyik: "Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq. Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, mən hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək".

Bu il aprelin 2-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun ölkəmizə səfəri çərçivəsində Bakıda ADA Universitetinin kampusunda İtaliya-Azərbaycan Universitetinin təməli qoyulub. Sözügedən ali təhsil ocağında tədris olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet eyni zamanda kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı, dizayn, sosial elmlər, biznesin idarə olunması, italiyaşünaslıq və digər istiqamətlər üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq ediləcəyi elm və bilik ocağı olacaq.

İtaliyada universitetin yaradılması ilə əlaqədar sənədlərin mübadiləsi tədbirində İtaliya Respublikası Ekoloji Keçid Nazirliyinin dövlət katibi xanım Vannia Qava dedi ki, ölkələrimiz arasında elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi, gücləndirilməsi, o cümlədən güclü ikitərəfli münasibətlərin növbəti səviyyəyə qaldırılması məqsədilə İtaliya vacib hesab etdi ki, ölkələrimiz arasında, həmçinin elmi-tədqiqatlarla məşğul olan elmi işçilərin də mübadiləsi baş tutsun.

İtaliya-Azərbaycan Universiteti üçün tərəfdaş italyan universitetləri adından Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım Paola Severino isə çıxış edərək vurğuladı ki, bu gün beynəlxalq səviyyədə yaşanılan çətinliklər dövründə Prezident Əliyev öz qətiyyətini, uzaqgörənliyini nümayiş etdirərək iki ölkə arasında əməkdaşlıq və dostluq münasibətlərinin daha güclü təməlini məhz burada qoydu.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev çıxış edərək bildirdi ki, İtaliya-Azərbaycan Universiteti iki ölkə arasındakı münasibətlərin böyük bir hissəsidir.

Əminliklə demək olar ki, geniş əməkdaşlıq əlaqələrinin məhz bu formada davam etdirilməsi gələcəkdə daha effektiv nəticələr verəcək. İtaliyadan yüksəksəviyyəli nümayəndə heyətlərinin Azərbaycana tez-tez səfərləri, eyni zamanda İtaliyanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa olunmasında fəal iştirakı, iqtisadi layihələrin həyata keçirilməsində aktivlik göstərməsi iki ölkə arasında münasibətlərdə yeni bir parlaq səhifə açır.

Bütün bu işlər Azərbaycan və İtaliya xalqlarının yaxınlaşması, bir-birini yaxşı tanıması və gələcəkdə daha geniş tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin qurulması üçün çox vacib addımlardır. Xüsusilə İtaliya və Azərbaycan arasında turizm, tələbə mübadiləsi, elm sahəsində əməkdaşlıq siyasi və iqtisadi sahələrdə münasibətlərimizin daha da dərinləşməsinə gətirib çıxaracaqdır.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

İŞİMİZ, GÜZƏRANIMIZ

# Neft ölkəsində qeyri-neft sektoru önə keçir

## Azərbaycanda qeyri-neft məhsullarının həm istehsalı, həm də ixracı sürətlə artır

**Məlum olduğu kimi, Azərbaycanda aparılan çoxşaxəli islahatların məqsədi ölkənin hərtərəfli inkişafını təmin etmək, o cümlədən qeyri-neft sənayesinin inkişafına nail olmaqdır. Ötən dövr ərzində bu sahədə çox işlər görülüb. Artıq ölkədə müasir, yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsal edən sənaye parkları və məhəllələri fəaliyyət göstərir.**



Bunun sayəsində həmin məhsulların idxalından asılılıq xeyli azalıb. Üstəlik, Azərbaycan bu cür məhsulların ixracatçısına da çevrilib. Faktlara nəzər salaq: cari ilin yanvar-iyun aylarında ölkə üzrə qeyri neft-qaz məhsullarının ixracı ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə dəyəri 25,4, real ifadədə 12,4 faiz artaraq 1milyard 457,6 milyon dollara bərabər olmuşdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyul aylarında Azərbaycanda 49,3 milyard manatlıq sənaye məhsulları istehsal olunmuş və xidmətlər göstərilmişdir. Həmin dövrdə qeyri neft-qaz sektorunda məhsul istehsalı artımı 10,7 faiz olmuşdur.

Konkret sahələrə gəldikdə, hesabat dövründə toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 299,6 milyon manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə geyim istehsalında 52, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 29,4 faiz artım deməkdir.

Qeyri-neft sənayesində ən çox məhsul verən sahələrdən biri kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələridir. Bu sahələr üzrə hesabat dövründə 1 milyard 339,4 milyon manatlıq məhsul istehsal olunmuşdur. Məhsul buraxılışı əczaçılıqda 2 dəfə, kimya sənayesində 18, rezin və plastik kütlə məmulatları istehsalında isə 9,5 faiz artmışdır. Metallurgiya sənayesi və hazır metal məmulatlarının hazırlanması sənayesi sahəsi də qeyri neft-qaz sənayesində istehsal həcminə görə önəmli yer tutur. Belə ki, cari ilin yanvar-iyul aylarında bu sahələr üzrə 922,4 milyon manatlıq məhsul istehsal olunmuşdur. Həmin dövrdə hazır metal məmulatlarının istehsalı sahəsində 32,4, metallurgiya məhsulları istehsalında 17,2 faiz artım müşahidə edilmişdir.

Maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində məhsul istehsalının artım dinamikası daha yüksəkdir. Cari ilin 7 ayında bu sahədə 295 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə digər nəqliyyat vasitələrinin istehsalında 3, avtomobil, qoşqu və qarımqoşquların istehsalında 2,6 dəfə, maşın və avadanlıqların istehsalında isə 39 faiz artım deməkdir. Hesabat dövründə bu sahədə 1210 və ya ötən ilin eyni dövrü ilə müqayisədə 270 ədəd çox minik avtomobili istehsal olunmuşdur.

Artım olan sahələrdən biri də tikinti materialları istehsalıdır. Hesabat dövründə sözügedən sahədə 620,2 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,9 faiz çoxdur.

Bütün bunlar həmçinin onu təsdiqləyir ki, Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş sənaye ölkələrindən birinə çevirməkdə qərarlıdır. Dövlət başçısının 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Başqa sözlə, mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

MDB məkanında ilk belə qurum olan mərkəz Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahəsində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) yaradılmış mərkəzləri ilə sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün müəyyən işlər aparılır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bir qrup şəhid ailəsi üzvü və əlilliyi olan şəxs Naxçıvanda müalicə alır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən daha 43 nəfər imtiyazlı şəxs yollayışla təmin olunaraq xəstəliklərinə uyğun sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb.**

Onlar şəhid ailəsi üzvləri və əlilliyi olan şəxslərdir. 18 yaşınadək əlilliyi olan şəxslər valideynlərindən birinin müşayiəti ilə göndəriliblər.

Yollayışla təmin olunanlar Naxçıvan Muxtar Respublikasındakı "Duzdağ" Fizioterapiya Mərkəzi, "Darıdağ" Arsenli Su Müalicəxanası və Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində bərpa-müalicə kursu keçəcəklər.

Agentlik tərəfindən postmüharibə dövründə 6 minə yaxın imtiyazlı şəxs yollayışla təmin olunaraq sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb.

Onların mühüm bir hissəsi şəhid ailəsi üzvləri və müharibə veteranlarıdır.

## Qazma meydançası istismar sınaqlarına təhvil verilib

**BP-dən bildirilib ki, "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi daha bir mühüm irəliləyişə nail olub.**

Platformanın Bibiheybətdəki tikinti sahəsində inşa olunan üst modullarının qazma meydançası istismar sınaqlarına təhvil verilib.

Hazırda ACE layihəsinin icrası üzrə işlər ən yüksək həddədir və ümumilikdə 75 faizdən çoxu tamamlanıb. Bu işlərə 5000 nəfər insan cəlb olunub.

## Paytaxtın ticarət dövriyyəsinin həcmi artıb

**Cari ilin yanvar-iyul aylarında paytaxtda ticarət dövriyyəsinin həcmi 2021-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 5,7 faiz artaraq 15 milyard 247,2 milyon manat olub.**

Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,6 faiz artaraq 8 milyard 532,6 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 1 faiz azalaraq 6 milyard 714,6 milyon manata bərabər olub. İstehlak məhsullarının 36,3 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 46,7 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 17 faizi isə paytaxtın məhsul bazarlarında realizə olunub.

## Polşa ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

**İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Polşanın Azərbaycandakı səfiri Rafal Poborski ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında enerji, ticarət, qarşılıqlı investisiyalar, startaplar, biznes missiyaların təşkili və sair sahələrdə, həmçinin tvininq layihələri çərçivəsində əlaqələr vurğulanıb, tərəfdaşlığın genişləndirilməsi perspektivləri qeyd edilib. Bildirilib ki, İqtisadi Zonaların İnkişafı Agentliyi ilə Polşanın müvafiq qurumları arasında əlaqələrin qurulması, iş adamları arasında biznes-forum və işgüzar görüşlərin təşkili, nəqliyyat-tranzit, işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması, sənaye parklarında, Ələt Azad İqtisadi Zonasında həyata keçirilən layihələrdə Polşa şirkətlərinin iştirakı, rəqəmsal iqtisadiyyat və innovasiya sahələrində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

Tərəflər iqtisadi-ticarət əlaqələrinin hazırkı vəziyyəti və genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

## Yaponiyanın yutub kanalı Azərbaycanın neft-qaz layihələri və SOCAR haqda veriliş yayımlayıb

**Yaponiyanın "Cross Border Club 3.0" yutub kanalı Azərbaycanın neft-qaz layihələri və SOCAR haqda veriliş yayımlayıb.**




AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Kazuyasu İşida hazırda Avropada baş verən enerji böhranından, Azərbaycanın karbohidrogen ehtiyatlarının bu böhranın aradan qaldırılmasında əvəzedilməz rolundan bəhs edib. Bildirilib ki, Azərbaycanın zəngin neft-qaz yataqları, bu yataqlardan hasil edilən enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, TAP və TANAP xətləri Avropanı xilas edəcək çox əhəmiyyətli infrastruktur layihələridir.

Verilişdə Orta Asiyanın enerji ehtiyatlarının Azərbaycan vasitəsilə Avropaya nəqli məsələsinə də toxunulur. Bu işdə Azərbaycanın tranzit rolunun xüsusi əhəmiyyətindən bəhs olunur. Vurğulanır ki, Qazaxıstan xam neftini Rusiyanın Novorossiysk limanına, oradan isə dəniz yolu ilə Avropaya nəql edən Xəzər Dəniz Boru Kəməri Konsorsiumunun (CPC) Rusiya tərəfindən dayandırılmasından sonra Azərbaycanın Avropaya enerji ixracı marşrutu kimi əhəmiyyəti xeyli artıb.

Verilişdə Qazaxıstanın "QazaqGaz" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilə imzalandığı, Qazaxıstan və Türkmənistandan gələn enerji mənbələrinin son illərdə Azərbaycandan keçmək imkanının və əhəmiyyətinin artdığı qeyd edilir.

Verilişdə Azərbaycanın Şərqlə Qərbi birləşdirən enerji qovşağı kimi rolunun gələcəkdə daha da artacağı bildirilir.

Qeyd edək ki, Kazuyasu İşidanın rəhbərlik etdiyi "Cross Border Club 3.0" kanalının 110 mindən çox abunəçisi, 500 mindən çox izləyicisi var.

## Neft yenə bahalaşdı

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft qiymətləri bahalaşıb.**




Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,66 dollar artaraq 93,02 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,26 dollar bahalaşaraq 86,87 dollar olub.




**Dünya sürətlə təmiz və ya alternativ enerji mənbələrinə keçir. Bu səbəbdən "yaşıl enerji" neft, qaz və kömürdən alınan enerji tərəfdarlarının "zövqü"ndən asılı olmayaraq, artıq müəyyən üstünlüklərə malik olan, oturuşmuş bir tendensiyadır. Artıq uzunmüddətli investisiyaların yerləşdirilməsində maraqlı olan investorların diqqəti alternativ enerji istehsalçılarına fokuslanır. Digər tərəfdən, Avropa bankları da fəaliyyətlərində iqlim riskləri olan şirkətlərə kreditlərin verilməsində məhdudiyyətlər tətbiq edirlər.**

Azərbaycana gəldikdə, ölkəmizdə də bu sahədə ciddi tədbirlər həyata keçirilir. Məqsəd yaxın gələcəkdə elektrik enerjisinin istehsalında bərpaolunan enerji mənbələrinin payının artırılmasını, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsini təmin etməkdir. Bu baxımdan alternativ enerjiyə keçidin bir sıra ölkələrdə necə aparılmasını qısa da olsa nəzərdən keçirmək maraqlı olardı.

Füsunkar təbiəti ilə seçilən, ekoloji problemlərin həllində fəallıq göstərən Avstriya bərpaolunan enerji mənbələrinə xüsusi maraq göstərir, biokütlə, geotermal istilik, su, külək və günəş enerjisindən geniş istifsadə edir. Hazırda ölkənin enerji istehlakının 33,4 faizi bərpaolunan enerji hesabına ödənilir. O cümlədən, enerji istehlakının bir qismi günəş enerşisinin, biokütlənin və geotermal enerji mənbələrinin hesabına formalaşır. Azərbaycanın ümumi enerji hasilatının böyük hissəsi məhz kiçik və orta su-elektrik stansıyalarının payına düşür. Bundan başqa, Burqenland federal əyalətindəki ərazilərdə külək enerjisi parkları yaradılmışdır. Hədəf 2030-cu ilədək ölkədə elektrik enerjisi tədarükünü 100 faiz bərpaolunan enerji mənbələri hesabına təmin etməkdir.

Bu ölkədə 1978-ci ilin dekabrındakı referendumdan sonra inşası gedən bütün nüvə reaktorları bağlanmış, nüvə enerjisindən imtinaya dair qanun qəbul edilmiş, nüvə tullantılarının saxlanılması və nüvə enerjisinin tədarükü qadağan edilmişdir.

Almaniya bu gün bərpaolunan enerji mənbələrinin inkişafında və tətbiqində liderdir və 2030-cu ilədək bütün hədəflərə nail olmaq üçün qanunvericilik bazasını yaratmışdır. Məqsəd həmin ilədək elektrik enerjisinin yarıdan çoxunun və bütün enerjinin təqribən üçdəbirinin bərpaolunan enerji mənbələri hesabına təmin etməkdir. AFR-də daş kömür çıxarılması dayandırılmışdır. Bu isə o deməkdir ki, yaxın gələcəkdə kömürlə işləyən elektrik stansiyalarının payı azalacaq. Həmçinin Almaniyada ev təsərrüfatlarının 90 faizi neftdən və atom enerjisindən imtina edilməsini və bərpaolunan enerji mənbələrinə keçidi zəruri sayırlar. Berlində artıq 2023-cü ildən bütün yeni binaların damlarında günəş batareyalarının quraşdırılması da planlaşdırılır.

ABŞ-da da bərpaolunan enerji mənbələrinin həcmi dörd dəfə artmışdır. 2019-cu ildən bəri külək energetikası bərpaolunan elektrik enerjisinin ən iri istehsalçısıdır. İkinci ən böyük istehsalçı hidroenergetikadır. ABŞ hidroelektrik enerjisinin ən iri istehsalçıları arasında Çin, Kanada və Braziliyadan sonra dördüncü yerdə qərar tutur. Bu ölkədə elektrik enerjisinin günəş energetikası hesabına təmin edilən hissəsi nəzərəçarpacaq dərəcədə artmaqdadır. 43 ştatda günəş batareyalarından enerji almaq üçün xüsusi sayğaclar quraşdırılmışdır. Birləşmiş Ştatlarda iri fotoelektrik stansiyaları fəaliyyət göstərir. Ən iri günəş-elektrik stansiyaları Las-Veqasın cənubi-qərbindədir. Geotermal enerji mənbələri də bərpaolunan enerji mənbələri sırasına aiddir. Şimali Kaliforniyadakı geyzerlər isə ən iri geotermal kompleksdir.

Bərpaolunan enerji mənbələrindən, o cümlədən külək, günəş, geotermal enerji və bioyanacaqdan istifadə edən yeni texnologiyaların çoxu ABŞ-da enerji istehlakının 85 faizini təmin edən mədən yanacaq növləri ilə ya rəqabət aparır və ya da tezliklə buna qabil olacaq. Son məlumata görə, 2011-2020-ci illər ştatlarda günəş və külək enerjisindən alınan elektrik enerjisinin həcmi təqribən dörd dəfə artmışdır. Təhlillər göstərir ki, indiki artım sürətinin saxlanılması mümkün olan halda külək, günəş və geotermal enerji 2035-ci ilə qədər elektrik enerjisinə tələbatın cari səviyyəsini təmin edəcək.

Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Misir kimi Şərq ölkələrində də bu istiqamətdə görülən işləri ötəri də olsa nəzərdən keçirmək faydalıdır. Səudiyyə Ərəbistanı gündəlik 10,2 milyon barel xam neft istehsal etsə də, 2030-cu ilədək ölkənin elektrik enerjisi ilə təminatının 50 faizini bərpaolunan enerji mənbələri hesabına təmin etməyi düşünür. Bu ölkədə bərpaolunan enerji mənbələri siyahısına su və günəş, həmçinin "yaşıl hidrogen" daxildir. Yeri gəlmişkən, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti bu ilin əvvəlindən Azərbaycanda 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə başlamışdır. Bu yaxınlarda həmçinin Azərbaycanda Qaradağ Günəş-Elektrik Stansiyasının təməlini qoyan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar", Fransanın EDF və yerli "Nesma" şirkətlərinin iştirakı ilə beynəlxalq konsorsium yaradılmışdır.

Misir hökuməti də bu sahə üzrə mühüm addımlar atır. Ölkədə 2035-ci ilədək elektrik enerjisinin 42 faizinin günəş və külək stansiyalarından əldə olunması nəzərdə tutulur. 2019-cu ilin noyabrında istifadəyə verilmiş "Benban" günəş enerjisi parkı 1465 MVt gücündədir. Hazırda Misirdə bərpaolunan enerji mənbələrinin ölkənin ümumi enerji təminatında payı 11 faiz olsa da, yeni proqramda Səudiyyə Ərəbistanı, BƏƏ və Almaniya şirkətlərinin iştirakı ilə qarşıdakı iki ildə bu rəqəmin iki dəfə artırılması nəzərdə tutulur.

Qeyd etdiyimiz kimi, Azərbaycan da bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi diqqət ayıran ölkələrdəndir. 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu sahənin inkişafına təkan vermişdir. Ölkəmizin relyefi, iqlim şəraiti, dağ çaylarının sayı bizim zəngin enerji potensialına malik olduğumuzu təsdiq edir. Xəzər akvatoriyası, Abşeron yarımadası, Bakı, habelə Xızı rayonu ərazilərində külək enerjisindən faydalanmaq üçün geniş imkanlar mövcuddur. Günəş enerjisi üzrə demək olar ki, bütün ölkə ərazisində müxtəlif layıhələrin reallaşdırılmasına təbii şərait var. İşğaldan azad edilmiş ərazilərimiz isə "yaşıl enerji"nin alınmasında əvəzsiz imkanlara malikdir. Həmin ərazilərin böyük bir hissəsində günəş enerjisindən yetərincə faydanlanmaq mümkündür. Laçın və Kəlbəcərdə isə külək enerjisinin yüksək potensialı var. Ümumiyyətlə, Azərbaycanda yerli su ehtiyatlarının 25 faizinin Qarabağda və Şərqi Zəngəzurda formalaşdığını, dağ çaylarının bolluğunu nəzərə alsaq, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı üçün istifadə etmək mümkündür.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycan Paris İqlim Sazişinin tələblərinə uyğun olaraq, 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz azaltmağı nəzərdə tutmuşdur. Ölkəmizdə "yaşıl enerji"nin istehsalının artırılması, işğaldan azad edilmiş ərazilərdə alternativ enerji zonalarının yaradılması bu öhdəliyin yerinə yetirilməsində mühüm rol oynayacaq.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Milli musiqimizin cəfakeşlərindən biri

**Bakı xanları nəslindən olduğu soyadından da məlumdur. O, məşhur Bakıxanovların nəslindəndir. Ulu babası, qardaşının vəfatından sonra taxta çıxan İkinci Mirzə Məhəmməd xanın xanlığı doqquz il davam etmişdi. Babası, İkinci Mirzə Məhəmməd xanın altı oğlunun böyüyü, təxəllüsü Qüdsi olan Abbasqulu ağa Bakıxanov isə tarixçi, maarifpərvər kimi tanınmışdı.**

Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, ustad tarzən, Xalq artisti, Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, peşəkar musiqi kollektivlərinin təşkilatçısı, çoxsaylı təsnif və rənglərin yaradıcısı Əhmədxan Bakıxanov 1892-ci il sentyabrın 5-də Bakıda dünyaya gələndə artıq nə xanlıq vardı, nə də taxt-taca sahiblənmək iddiaları, varislik ənənələri. Qalan Bakıxanovların ad-sanı, igidlikləri, şöhrəti barədə deyilənlər və yazılanlar idi. Xanlıq çar Rusiyasının işğalından sonra ləğv olunsa da, Bakıxanovlar öz əsilzadəliklərini unutmur və unutdurmurdular...



## Solaxay tarzən

Atası Məmmədrza bəy uzun illərdi ticarətlə məşğuldu. Ancaq o, peşəkar musiqiçi olmasa da, bu sənətə ürəkdən bağlı idi. Sənətkarlara böyük ehtiram göstərir, onlardan özünə qarşı hörmət görürdü. Süfrəsi açıq, ocağı qonaq-qaralı idi. Məmmədrza bəy Bakı musiqisevərlərini, bacarıqlı musiqiçiləri, xanəndələri tez-tez evinə dəvət edirdi. Əslində, özü də, sadəcə, tamaşaçı, dinləyici deyildi. Məmmədrza bəy tarda musiqilər çalır, xoş avazla oxuyurdu. Onun qaynı Mirzağa zərgər olsa da, tarda gözəl çalırdı.

Məmmədrza bəy oğlanları Məmmədxanı və Əhmədi musiqiçi görmək istəyirdi. Ailədə musiqi sənətinə tükənməz sevgi ilə böyüyən, evlərində musiqiçilər görən, onların gözəl ifalarını dinləyən qardaşlar da kiçik yaşlarından tar alətinə xüsusi maraq göstərirdilər. Hər iki qardaş tar ifaçılığında ustad tarzənlərdən geri qalmayan dayıları Mirzağaya və ataları Məmmədrza bəyə qoşuldular. Beləliklə, Məmmədrza bəyin ocağında ailə ansamblı yarandı.

Bütün bunlar Əhməd Bakıxanovun ilk musiqi təhsilinə, görkəmli tarzən və bacarıqlı pedaqoq kimi yetişməsinə böyük təsir göstərdi. Ancaq o illərdə bircə qayğısı vardı. Evin yuxarı başında saxlanılan və hər kəsin sevimlisi olan gözəl sədəfli tarda çalmaq növbəsi atasından, dayısından və böyük qardaşından sonra ona gəlib çatırdı. Bəzən eləcə kənarda dayanıb onların ifasını həm heyranlıqla, həm də həsrətlə dinləməli olurdu. Axır ki çıxış yolu tapır. Bir gün evdə heç kim olmayanda tarı götürüb sağdan sola çevirir ki, ondan başqa həmin tarda çalan olmasın. Atası, dayısı bundan xəbər tuturlar. "Gör Əhmədin necə həvəsi var ki, tarı soldan sağa çevirib", - deyirlər. Belə çalmaq çətin olsa da, o, nəinki bacarmış, hətta ifası ilə məşhurlaşmışdı. Və Əhməd Bakıxanov təkcə Azərbaycanda yox, Şərq ölkələrində yeganə solaxay tarzən olmuşdu.

## Böyük sənətə doğru...

Bakıxanovlar ailəsi bir müddət İranın Rəşt şəhərində yaşamalı olub. On altı yaşlı Əhməd Bakıxanov da ilk təhsilini orada məşhur xanəndə Əbdülhəsən xandan almağa başlayıb. Qabiliyyətli şagird olduğunu ilk günlərdən göstərib. Qısa vaxtda musiqi sənətinin çox dərinliklərindən, incəliklərindən xəbərdar olub. Ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərini öyrənib.

Ailəlikcə Bakıya qayıtdıqdan sonra Əhməd Bakıxanov təhsilini doğma şəhərində davam etdirmək istəyib. O illərdə maddi vəziyyətləri buna imkan verməyib. Amma həvəsdən düşməyib. Nə könlü, nə də barmaqları tarın mizrablarından uzaq düşüb. Gənc Əhməd Bakıxanov böyük arzularla və musiqi sənətinə sonsuz sevgi ilə öz üzərində çalışıb. Dövrünün görkəmli tarzənlərinin yanına gedib, onların ifaçılıq ustalığına diqqət yetirib, daim öyrənib.

1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə fərqli ifası ilə tanınıb və sevilib. Böyük arzularını həyata keçirməsində, Azərbaycan musiqi sənətinə bacardığı qədər, misli-bərabəri olmayan xidmətlər göstərə bilməsində Üzeyir bəy Hacıbəyli ilə tanışlığının böyük rolu olub. Əhməd Bakıxanovun oğlu, görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanov atası haqqında xatirələrində deyib: "Qonşuluqda yaşayan dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli muğamlarımızın ifaçısını axtarırdı və onun axtardıqlarından biri də ədəbiyyatdan götürdüyü "Nəva" muğamı idi. Üzeyir bəyə deyiblər ki, həmin muğamı yeganə Əhməd Bakıxanov ifa edə bilər. Üzeyir bəy Hacıbəyli də xəbər göndərib ki, Əhməd xan, xahiş edirəm tarınla bizə gələsiniz. Atam gedib. Onu çox gözəl qarşılayıblar. Çay süfrəsi arxasında Üzeyir bəy soruşub ki, Əhməd xan, "Nəva" muğamını çala bilərsiniz? Atam cavab verib ki, bəli, çalaram. Atam "Nəva"nı tarda ifa edib. Üzeyir bəy deyib ki, Əhməd xan, onu bil ki, axtardığımı tapmışam. Üzeyir bəy elə həmin gün atamı konservatoriyaya müəllim işləməyə dəvət edib".

Əhməd Bakıxanov Üzeyir bəy Hacıbəylinin dəvəti ilə 1930-cu illərdən Azərbaycan Dövlət Konservatoriyasında, sonralar Azərbaycan Dövlət Musiqi Kollecində dərs deyib.

1931-ci ildə Xalq Çalğı Alətləri Ansamblını yaradıb. Ömrünün sonunadək bu ansambla rəhbərlik edib. Amma repressiya tufanı respublikanı çənginə alanda Əhməd Bakıxanov bu sahədəki xidmətinə də ara vermək məcburiyyətində qalıb...

1930-cu illərdə sovet hakimiyyətinin həyata keçirdiyi repressiya siyasətinin ağır zərbələrindən Bakıxanovlar ailəsi də qurtula bilməyib. 1937-ci ildə Əhməd Bakıxanov və böyük qardaşı Məmmədxan həbs olunublar. Tofiq Bakıxanov onlara qarşı irəli sürülən saxta ittihamlar barədə danışıb: "Atamı və əmimi Azərbaycanda muğamları İran adı ilə təbliğ etməkdə təqsirləndirirdilər. Deyirdilər ki, Əhməd Bakıxanov "Bayatı-Şiraz"la bizi Şiraza çəkir... Buna görə həbs olundular. İkiotaqlı evdə yaşayırdıq. NKVD-nin əməkdaşları gəlib axtarış apardılar. Ancaq evdə Əhməd Bakıxanovun dəftərindən, kitablarından başqa heç nə olmadığına görə akt tərtib etmədilər. Anam Məsmə xanım Üzeyir bəyin yanına gedib və baş verənləri ona danışıb. Üzeyir bəy anama səbirli olmağı məsləhət görüb. Deyib ki, mən respublika rəhbərləri ilə bir yerdə Moskvaya gedirəm, bu məlumatları onlara çatdıraram. Atamla əmim hələ həbsdə ikən Moskvada Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü keçirilirdi. Onlar qayıdandan sonra Üzeyir bəy bizə zəng vurub şad xəbər verdi ki, yaxın vaxtlarda Əhməd xanı və Məmmədxanı buraxacaqlar. Atamla əmim üç ay sonra azad edildilər".

Onlar həbsdən qurtulduqdan sonra da böyük məhəbbətlə, təəssübkeşliklə Azərbaycan musiqi sənətini qoruyub inkişaf etdiriblər. Əhməd Bakıxanov çoxşaxəli fəaliyyət göstərib. Muğamlarımızı dərindən bilən, milli musiqimizin cəfakeşlərindən olan sənətkar ömrünün sonlarına qədər yorulmadan çalışıb.

Onun qardaşı Məmmədxan Bakıxanov istedadlı tarzən kimi tanınıb. Əməkdar artist Məmmədxan Bakıxanov Azərbaycan musiqisinin görkəmli nümayəndələrindən biri, filarmoniyanın solisti olub.

## Unudulmaz sənətkar

Əhməd Bakıxanovun həm tarzən, muğam bilicisi, həm də pedaqoq kimi Azərbaycan musiqi sənətinə göstərdiyi xidmətlər böyükdür. Onun Azərbaycan muğamının qorunmasında və inkişafında böyük xidməti var. Tara, muğama hücum edilən keçən əsrin 30-cu illərində Əhməd Bakıxanov dahi bəstəkar Üzeyir bəy Hacıbəyli ilə birlikdə xalqımızın milli sərvəti olan muğamın, tarın qorunub saxlanılmasında böyük işlər görüb.

Əhməd Bakıxanov həm də "Azərbaycan xalq rəngləri", "Azərbaycan ritmik muğamları", "Muğam, mahnı, rəng" kimi not nəşrlərinin müəllifidir. 1931-1973-cü illərdə Azərbaycan Radiosunun nəzdində Xalq Çalğı Alətləri Ansamblının təşkilatçısı və rəhbəri olub. Əhməd Bakıxanovun ifasından bir çox instrumental muğamları - "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Hümayun", "Şahnaz" muğamları bəstəkar Nəriman Məmmədov tərəfindən nota salınaraq çap edilib.

Əhməd Bakıxanov 1973-cü il martın 26-da vəfat edib. İkinci Fəxri xiyabanda dəfn olunub. Yaratdığı və rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı həmin ildən Əhməd Bakıxanovun adını daşıyır. Sənətkarın ifasında lentə alınmış muğamlarımız, eləcə də bəstələdiyi əsərlər gözəl sənət nümunələri kimi musiqi tariximizdə qalıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Narkomaniyaya yox deyək

# "Ağ ölüm"lə mübarizədə hər kəs səfərbər olmalıdır

**İctimaiyyəti ciddi narahat edən narkomaniyaya qarşı Bakıda, eləcə də respublikamızın digər şəhər və rayonlarında geniş maarifləndirici işlər aparılır. Kütləvi informasiya vasitələrindən də göründüyü kimi, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində mühüm tədbirlər həyata keçirilir, narkotik maddələri gizli yolla əldə edib satanlara və ondan istifadə edənlərə qarşı hüquq-mühafizə orqanları tərəfindən mübarizə gücləndirilir.**



Əməkdaşımız narkomaniyanın sağlamlığa və ailə dəyərlərinə zərərli təsirindən qorunmaq mümkündürmü, bunu hamı bilirmi kimi suallarla bu sahədə çoxillik təcrübəyə malik olan həkim-psixoloq Şəfa Cavadovaya müraciət etmişdir. O demişdir:

- Azərbaycan ailəsinin qarşılıqlı hörmət, məhəbbət və sağlam təməllər üzərində qurulmasının əsas səbəblərindən biri də tarixin süzgəcindən keçmiş ailə dəyərlərinin yaşadılması və nəsildən-nəslə ötürülməsidir. Təəssüf ki, bu gün psixoloqların, bir çox valideynlərin üzləşdiyi ən ağrılı problemlərdən biri ailələrə faciələr yaşadan narkomaniyadır. Bəzən valideynlər övladlarının gizli aludə olduğu bu bəladan xəbərsiz halda uşağının davranışında, əməllərində xoşagəlməz hallar barədə mənə də müraciət edirlər. Həkim, bəlkə başı pozulub, bəlkə qorxub, yıxılıb, bəzən günün müəyyən vaxtı özündən çıxır, həddindən artıq əsəbi gərginlik keçirir, özü də yaxşı oxuyan şagird olub, indi də tələbədir, son vaxtlar dərslərində də geriləmə hiss olunur və digər məsələlərlə bağlı narahatlıqlarını bildirirlər. Müəyyən müayinələrdən və analizlərdən sonra valideynə deyəndə ki, oğlun, ya qızın narkotik maddə aludəçisidir, az qalır ürəyi getsin... Biz o kateqoriyadan olan "xəstələri" xüsusi ixtisaslaşdırılmış müəssisələrə müalicəyə yönləndiririk.

Televiziyada, bəlkə də, hər gün görürük, rəsmi mənbələrdən eşidirik ki, nə qədər belə maddə satanlar, narkokuryerlər saxlanılır. "Ağ ölüm" kimi tanınan bu bəşəri bəlaya düçar olanların sayı təəssüf ki, ildən-ilə artmaqdadır. Narkomaniya dinindən, dilindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. Hazırda Yer kürəsinin 250 milyondan çox sakini planetimizin ən qlobal problemlərindən birinə çevrilən "ağ ölüm"ün əsirinə çevrilib. Bunun 47 milyon nəfəri Latın Amerikası ölkələrinin payına düşür. Təkcə Meksikada narkomaniyanın bəlasına düçar olmuş insanların sayı 1 milyon 200 min nəfəri ötmüşdür. Avropa Birliyi ölkələrinə gəldikdə isə, orada 750 minə yaxın insan narkotik maddə istifadəçisidir. MDB və Asiya ölkələrində isə bu göstərici 26 milyondan çoxdur. Yeri gəlmişkən, ekspertlərin fikrincə, bu rəqəm tam real gerçəkliyi əks etdirmir. Çünki narkomanların heç də hamısı qeydiyyata düşmür.

Görünən odur ki, narkomanlıq insanı həm ruhən, həm də fiziki cəhətdən şikəst edir. Tibbi araşdırmalara görə, narkotik maddələr ilk növbədə orqanizmin immunitet səviyyəsini aşağı salaraq ürək-damar sisteminin, qaraciyər və böyrək kimi daxili orqanların ciddi zədələnməsinə yol açır. Əsəbi gərginlik və pozğunluq yaradır. Sonda ölüm halları baş verir. Erkən vaxtdan narkotik qəbul edən şəxslərin ömrü təxminən 35-40 yaşarası olur.

Narkotik maddə qəbuluna aludəçiliyin əsas səbəbləri bu maddələrə olan maraq, aşırı stres, kənar təzyiqlər və digər psixi asılılıqlardır. Müşahidələrdən o da məlum olur ki, narkotik maddələrdən istifadə edən gənclərin valideynləri əksər hallarda lazımi qədər sevgi, diqqət, qayğı, nəzarət və ailədaxili qaydaları olmayan ana-atalardır. Bəzi ailələrin isə basqın xarakterli, avtoritar olduğu üzə çıxır. Boşanan, ayrı yaşayan, valideynlərdən birinin itirildiyi ailədən olan uşaqlar arasında bu cür maddələrin istifadəsi daha çox yayılmışdır. Ana-atanın düzgün nümunə və model olmaması da bu sahədə özünü büruzə verir. Problemlər qarşısında aciz qalan, yeni üsul və yollar axtarmayan ailələrin uşaqları risk qrupuna daxildirlər. Ailə daxilində yeniyetmənin problemlərini bölüşə biləcəyi insanın olmaması da problemi gərginləşdirir.

Neçəillik təcrübədə görmüşəm ki, həddindən artıq nəzarətin olduğu ailənin uşaqlarında da narkotik maddəyə meyillilik yaranır. Övladlarına qulaq asmayan, onları başa düşməyən, öz iradələrini davamlı olaraq göstərən, uşağın şəxsi xarakterinin formalaşmasına imkan verməyən valideynlər gələcəkdə uşaqları ilə bu və digər formada problemlər yaşayırlar.

Spirtli içki və narkotik maddə istifadəsi kişilərdə qadınlara nisbətən daha çox təsadüf edilir. Bəzən bunu davranış pozuntuları, qorxusuzluq, digər insanlarla hesablaşmamaq kimi qələmə də verirlər. Psixoaktiv maddələrdən asılılığı olan insanlardan danışarkən "yetkinləşməyən", "nəfsinin qurbanı olan", "özünə inamı olmayan və özünü olduğu kimi qəbul edə bilməyənlər", "üsyankar", "insanlarla münasibət qurmaqda çətinlik çəkən" və digər ifadələr işlədilir. Psixoanalizə görə, psixoaktiv maddələrdən istifadə bu cür maddələrin beyinə təsiri nəticəsində istədiyi vaxtda həzz almaq, bunun nəticəsində yetkinliyin məsuliyyət və çətinliklərindən qaçmaq istəyən şəxslər üçün "ən yaxşı yol və hədiyyə"dir.

Statistik məlumatlara görə, bir sıra dünya ölkələri ilə müqayisədə Azərbaycanda narkomaniya o qədər geniş yayılmasa da, amma fakt faktlığında qalır ki, dövlətin, ictimaiyyətin və hüquq-mühafizə orqanlarının ciddi mübarizəsinə baxmayaraq, respublikamızda da istifadəçilərin sayı və coğrafiyası artmaqdadır.

Ölkəmizdə narkomaniya ilə mübarizə məqsədilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılıb, bu mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilib. Azərbaycan Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib. Sərəncamın tələb və tövsiyələri baxımından narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirilir. İstər ali təhsil müəssisələrində, istərsə də orta məktəblərdə "Narkomaniyaya yox deyək!", "Narkomaniya və digər zərərli vərdişlərə qarşı birgə mübarizə aparaq!" devizi ilə yığıncaqlar, görüşlər və digər tədbirlər təşkil olunur. Tədbirlərdə narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizənin bu gün xüsusilə aktual xarakter daşıdığı, aparılan tədbirlərin hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olduğu diqqətə çatdırılır. Eyni zamanda narkotik asılılığın aradan qaldırılmasının çətin olmasına baxmayaraq, bunun mümkün olduğu və narkotiklərdən istifadə edənlərin erkən müraciəti müalicənin əksər hallarda uğurlu nəticələnməsi ilə müşahidə edildiyi xüsusi vurğulanır.

Fikrimcə, heç bir şagirdə şpris, maddə adı, deformasiyaya uğramış sümük, bədən göstərməyin faydası yoxdur. Biz gəncin daxili-xarici resurslarını aktivləşdirməliyik, onda idmana, istəyində olduğu məşğuliyyətə, kitaba, mütaliəyə meyillilik yaratmalıyıq. Birmənalı olaraq başa düşülməlidir ki, narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükəlidir. Narkomaniya ilə əvvəl psixoloji, sonra isə sosial və tibbi mübarizə aparılmalıdır. Doğrudur, bəzən dərmanlar qəbul etməyi, yaxud qanda narkotiklərin yuyulması prosesini həyata keçirməyi müalicə hesab edirlər. Lakin bu, müalicə deyil. Bu, narkotiklə zəhərlənmədən xilasdır, yaxşı halda xəstə zəhərlənmədən xilas olur, amma narkotikdən asılılıq qalır. Həmin asılılıqdan xilas olmaq üçün çoxşaxəli müalicə alqoritmi qurulmalıdır, çünki bu zaman mütləq depressiya əleyhinə müalicə aparılmalıdır. Narkotiklərdən istifadə edənlərin erkən müraciəti çox hallarda uğurlu müalicə ilə nəticələnir. Narkotik istifadəçiləri çox vaxt qısa zamanda ailəsini, dostlarını, işini, əmlakını, sağlamlığını və həyatını itirir. Bu uçuruma sürüklənməyi saxlamaq hər bir gəncin öz əlindədir və bu işdə də onlar tək deyillər. Dövlətimiz lazımi kömək göstərir, eyni zamanda gənclərə yardım etməyə hazır olan xeyriyyəçilər, mütəxəssislər var. Bir sözlə, milli-mənəvi dəyərlərimizə zidd olan narkomaniyaya qarşı mübarizədə hər kəs səfərbər olmalı, zərərli və yad meyillərin qarşısının alınması istiqamətində əlindən gələni əsirgəməməlidir.

*Söhbəti yazdı:*
*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Ermənistanın dövlət borcu 10 milyard dollara çatıb

## Bu ölkəni qarşıdakı dövrdə daha böyük problemlər gözləyir

**Hazırda məğlub Ermənistan böyük problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və yaranmış mövcud çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir. Xüsusən də Rusiyada rublun kursunun aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır.**

2022-ci ilin ilk 6 ayında bu ölkədə ticarət dövriyyəsinin artımı 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,7 faiz təşkil edib. Araşdırmalara görə, adətən, milli valyutanın mövqelərinin möhkəmlənməsi qiymətlərin azalmasına səbəb olur, lakin Ermənistanda istehlak qiymətləri indeksi ilin birinci yarısında 8,1, iyunda isə 10,3 faiz artıb. Üstəlik, 2022-ci ildə Ermənistanda istehlak qiymətləri indeksi 2021-ci ilin iyununda iyun ayı ilə müqayisədə 10,3 faiz artıb.

2022-ci ilin birinci yarısında Ermənistanın istehlak bazarında inflyasiya yalnız iyunda 0,3 faiz olmaqla 8,1 faizə qədər sürətlənib. Eyni hal keçən il də nisbətən aşağı səviyyədə müşahidə olunub. 2021-ci ildə ilin birinci yarısında inflyasiya 5,7 faiz təşkil edib. Yalnız iyunda 0,8 faiz inflyasiya qeydə alınıb, 2020-ci ilin iyun ayı ilə müqayisədə isə inflyasiya 6,5 faiz təşkil edib.

Bu arada Ermənistanın dövlət borcu 9,97 milyard dollara çatıb. Təkcə 2021-ci ildə Ermənistanın dövlət borcu 1,3 milyard dollar və ya 16 faiz, Ermənistanın ümumi daxili məhsulu isə cəmi 5,7 faiz artıb. "4rd.am" saytı yazır ki, Paşinyan hökumətinin 4 ili ərzində (2018-ci ilin aprelindən) Ermənistanın dövlət borcu 3,1 milyard dollar və ya 45,2 faiz artıb. Təkcə bu ilin yanvar-iyul aylarında Ermənistanın dövlət borcu 748,36 milyon dollar və ya 8,1 faiz artıb. Maraqlıdır ki, dövlət borcunun artması daxili borcun artması hesabına həyata keçirilib. Lakin qeyd etmək lazımdır ki, daxili borclara xidmət dövlət büdcəsi üçün xarici borcdan daha baha başa gəlir. Müqayisə üçün qeyd edək ki, 2021-ci ilin dekabrında Ermənistanın dövlət borcunun 66,9 faizini xarici borc, 33,1 faizini isə daxili borc təşkil edib, yəni bu ilin 7 ayı ərzində dövlət borcunun strukturunda kəskin dəyişiklik baş verib.

Ekspertlərin fikrincə, indiki vəziyyət tamamilə iflasa uğrayan Ermənistan üçün daha faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən ölkədə ümumi daxili məhsulun (ÜDM) artımı bu durumda mümkün olmayacaq. Əksinə, sözügedən sahədə tənəzzül olması və böyük geriləmənin yaşanması tamamilə gözləniləndir. Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dolların və digər xarici valyutaların qiyməti bundan sonra da artacaq. Elə bu səbəbdən ölkədə zəruri ərzaq mallarının qiyməti getdikcə qalxır. Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları çox azdır. Xaricdən, xüsusən də Rusiyadan köçürülən pulların miqdarının azalması isə daha böyük iqtisadi problemlərə yol açır.

Görünür, bütün bunların nəticəsidir ki, ölkədə ictimai gərginlik azalmır. Hökumətə qarşı keçirilən etirazlara dəstək verənlərin sayının artması isə iqtidar üçün təhlükə yaradır. Bir neçə gündür ki, ölkə rəhbərliyinin yarıtmaz siyasətinin əleyhinə nümayişlər keçirilir. Sosial problemlər fonunda təşkil edilən aksiyalarda siyasi tələblər irəli sürülür, hakimiyyət istefaya çağırılır. Ümidini üzənlər isə çıxış yolunu ölkəni tərk etməkdə görürlər.

Hadisələrin bu səpkidə inkişaf etdiyi bir vaxtda keçmiş hərbi xunta təmsilçilərinin həbs dalğası da genişlənir. Belə ki, general-leytenant Calal Harutyunyana qarşı da cinayət işi qaldırılıb. Onun xidməti vəzifəsinə səhlənkar münasibət göstərdiyi və bunun ağır nəticələrə gətirib çıxardığı bildirilir. Ermənistan Respublikasının İstintaq Komitəsinin Mühüm işlərin araşdırılması şöbəsində aparılan cinayət işi çərçivəsində keçirilən genişmiqyaslı istintaq-əməliyyat və inzibati tədbirlər nəticəsində müəyyən edilib ki, hərbi rəhbər, general-leytenant rütbəsində olan Calal Harutyunyan elan edilmiş hərbi vəziyyət dövründə xidməti vəzifələrinə səhlənkar münasibət göstərmiş, onları lazımınca yerinə yetirməmişdir. Onun əməlləri ağır nəticələrə səbəb olmuş, bölmələri canlı qüvvə və hərbi texnika baxımından külli miqdarda itki vermiş, ehtiyat hissələri döyüş qabiliyyətini itirmiş, atəş mövqeləri Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir.

Xatırladaq ki, 44 günlük müharibədə PUA-ların hədəfinə çevrilən, ağır yaralansa da, sağ qalan Harutyunyan Ermənistan silahlı qüvvələrinin "canlı əfsanəsi" hesab olunurdu. Bir gün əvvəl Ermənistan Respublikasının İstintaq Komitəsinin irəli sürdüyü ittihamla məhkəmə digər general Mikael Arzumanyan barədə də həbs qətimkan tədbiri seçib.

Məhz bütün bunlar Ermənistanın qarşıdakı günlərdə daha böyük problemlə üzləşəcəyindən xəbər verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən mövqelərimiz ümumilikdə 19 dəfə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bunlardan 16-sı Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər və Qarakilsə rayonları istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutmaqla baş verib.

Digər 3 hadisə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqla qeydə alınıb.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Bütün hallarda Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.




BURULĞAN

**Erməni şərqşünas alimi, erməni tarixi mənbələri üzrə mütəxəssis Kerop Patkanov yazır ki, 10 may 1828-ci il tarixli "Türkmənçay" müqaviləsindən sonra Paskeviçin rəhbərliyi ilə Azərbaycana İrandan 40 min, Türkiyədən 90 min erməni köçürüldü. Birlikdə götürüldükdə 1828-1896-cı illərdə İrəvandan və Türkiyədən köçürülənlərin sayı 2 milyon 200 mindən artıq olmuşdu. Onlardan 985 min 460 nəfəri Azərbaycanın qərbində, Qarabağ və Yelizavetpol (Gəncə) quberniyasında yerləşdirilmişdi.**

# Erməni riyakarlığı

Ermənilər bu yerlərdə məskunlaşandan sonra azərbaycanlıları sıxışdırmağa başlamış, onların qarətçilik əməlləri adi hal almışdı. Vaxtılə Yelizavetpol adlandırılan Gəncədə, habelə onun inzibati ərazi vahidliyinə daxil olan rayon və kəndlərdə məskunlaşmış gəlmə ermənilər ən alçaq əməllərdən çıxırdılar: planlı şəkildə həftədə bir, ayda bir gah bu, gah da digər azərbaycanlılar yaşayan kəndlərə basqınlar edir, qarət, qətl və terror törədirdilər. Azərbaycanlıları yaşadıqları dədə-baba yurdlarından perik salaraq yeni yaşayış yeri və münbit əkin sahələri əldə edirdilər. Tarixi mənbələrdən məlum olur ki, onlar nəinki yerli türk-müsəlman əhalisinə, eləcə də həmişə azərbaycanlılarla dost və mehriban şəraitdə yaşayan almanlara qarşı da qəddarlıqları və qarətçilikləri ilə seçiliblər. Xatırladaq ki, 1816-1817-ci illərdən başlayaraq Avropada Napoleonun apardığı müharibədən yoxsul vəziyyətə düşmüş minlərlə alman Qafqaza, o cümlədən Azərbaycana köç etmişdir. Vürttemberq krallığından olan ilk alman koloniyası 1819-cu ildə Gəncəbasar bölgəsinə gələrək Annifel adlı dörd küçədən ibarət ərazidə məskunlaşaraq indiki rayon mərkəzinin əsasını qoymuşlar, rayonun İrmaşdı, Çinarlı (Leninkənd) kəndlərində, eləcə də Xanlarda (indiki Göygöl) kompakt şəkildə yaşamışlar. O vaxtlar ermənilərin "Daşnaksütyun" silahlı birləşmələrinin bəzən gizlin, bəzən də açıq-aşkar həyata keçirdikləri terror əməlləri arxiv materiallarında olduğu kimi, insanların yaddaşında da yaşayır. Erməni simasızlığı, erməni nadanlığı 1918-ci ilin Şəmkir davasında, Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda, 1920-ci ilin Gəncə üsyanında, kənd camaatının xəbəri olmadan qonşu müsəlman kəndlərinə basqınlarında, qarət və qətllərdə özünü daha qabarıq büruzə verirdi. Azərbaycan 1920-ci ilin mayında imperiya tərəfindən işğal edildikdən sonra bu bölgədə erməni riyakarlığı çiçəklənmə dövrünə qədəm qoymuşdur. Bu dövrdə mərkəzdəki havadarlarının köməyi ilə çox sayda azərbaycanlı və alman ailəsi ermənilərin təşkilatçılığı ilə "antisovet fəaliyyəti"ndə günahlandırılaraq, elə NKVD-dəki erməni cəlladların əli ilə güllələnmiş, digərləri Sibirə sürgün edilmişlər. Ermənilərin heç bir qanuna sığmayan davranışı almanları o həddə çatdırır ki, Şəmkirdə, eləcə də Xanlarda insanlar küçələrə "ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar" şüarları yapışdırırlar.



Təəccüblüsü odur ki, ötən əsrin 30-cu illərində Şəmkir rayonu əhalisinin heç 10 faizini ermənilər təşkil etmədiyi halda, rəhbər vəzifədə olanların 90 faizi ermənilər idi. Rayonda 26 kənd şurası olub ki, bunun da 7-si ermənilərə, 2-si almanlara məxsus olub. Ermənilərin özbaşınalığından cana doymuş almanlar mərkəzi hakimiyyət orqanlarına şikayət məktubları yazırlar. Gəncədə və ətraf rayonlarda poçt-rabitə sistemində çalışan ermənilərin çoxluğundan, yuxarılara ünvanlanan məktubların onlar tərəfindən it-bata düşdüyündən ehtiyatlanaraq müxtəlif yollarla məktub Batumidəki Almaniya səfirliyinə, oradan da poçt vasitəsi ilə Bakıya, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə çatdırılırdı.

Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırova ünvanlanmış məktubda bildirilirdi: Rayon Partiya Komitəsinin I katibi Yusibov, sadəcə olaraq, Rayon Komitəsinin başında durur, fiqur kimi. Sükan millətçi II katib Manuçarovun əlindədir. İki il ərzində azərbaycanlıları sıxışdıraraq yerlərinə erməniləri qoyub. Üçüncü katib Nazarov baxmayaraq rusdur, faktiki olaraq Manuçarovun diktəsi ilə işləyir.

Rayon Partiya Komitəsində Təbliğat şöbəsinin müdiri Vaskanyan, Təşkilat-təlimat şöbəsinin müdiri Nazaryan, Hesabat şöbəsinin müdiri Qabreilyan və digərləri, eləcə də rayon Komsomol Komitəsinin birinci katibindən başqa, bütün vəzifəli şəxslər ermənidir.

Rayon İcraiyyə Komitəsinin sədri Şabanovdur, o da nə ətdir, nə balıq. Bütün işlər onun erməni müavini Soqomonyan və kadrlar şöbəsinin müdiri Simonyanın əlində cəmləşib.

Digər aparıcı vəzifələrdə, məsələn, rayon mətbəəsinin müdiri erməni Yandiyandır, Daş karxanasının müdiri keçmiş starşina Danilyandır, Xalq Təsərrüfatı İdarəsinin müdiri erməni Baqramovdur, Kommunal Təsərrüfatı şöbəsi yanında tikinti rəhbəri Virabyandır. Rayondakı hamamın müdiri Mariya, mehmanxananın müdiri Balasanova, Əmanət kassasının müdiri Zaxaryan, Dövlət Bankının müdiri Abramova, Kənd Təsərrüfatı Bankının müdiri Xocanyan, Tədarük Komitəsinin səlahiyyətli şəxsi Arutyunov, Yun-Dəri Kontorunun müdiri Danelyan Armenak (Türkiyə ermənisi), rayon mərkəzi mağazasının müdiri Xocayan, Artel müdiri Zaxaryan, ictimai iaşə müəssisəsinin müdiri Danilyan, mədəni mallar mağazasının müdiri Marqo, ot-alaf məntəqəsi müdiri Karapetyan, hərbi ticarət mağazasının müdiri Osipov və mağazanın bütün İşçiləri ermənilərdir. Bundan başqa, şəhər İstehlakçılar cəmiyyətinin sədri Varyan, rayon prokuroru Qriqoryan, rayon maşın-traktor stansiyasının direktoru Sarkisyan, rayon mərkəzindəki orta məktəbin direktoru və müəllimlərinin 80 faizi ermənidir. Yetim uşaqlar evinin rəisi Baqramov, əlillər artelinin müdiri Qargen Danelyan, Anin alman kolxozu partiya komitəsinin katibi İsaak Akopcanov, rayon icraiyyə komitəsi Partiya təşkilatının katibi Xocayan, kooperativ artellərin partiya komitəsi katibi Melik və digər bunlar kimi vəzifədə olanların hamısı erməni millətindən olanlardır.

Xatırladaq ki, ermənilərin rəhbər olduğu idarə və təşkilatlarda bütün tərkib ermənilərdən ibarətdir. Onlar mərkəzdəki havadarlarının köməyi ilə Şəmkirdə yerli camaatla qanunun tələbləri ilə yox, öz istəkləri baxımından rəftar edirlər..."

Erməni riyakarlıqları və erməni özbaşınalığından bəhs edən onlarca bu kimi faktlar barədə Mərkəzi Komitəyə məlumat yazan bir qrup alman kolonistinin bu məktubu barədə MK-nın məsul nümayəndəsi Karkaryan Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırova məruzə etmək və ya məktubu öz nəzarətində saxlayaraq Daxili İşlər Xalq Komissarlığına göndərib müvafiq tədbir görmək əvəzinə, müraciəti Daxili İşlər Xalq Komissarlığının Şamxor rayon şöbəsinə, dövlət təhlükəsizliyi leytenantı Kalyaginə yollayaraq imzasız məktubun müəlliflərini axtarıb-tapmağı, onları məsuliyyətə cəlb etməyi tapşırır. Bax, budur erməni hiyləgərlyi, erməni riyakarlığı. Sovet dönəmində mərkəzdəki havadarlarının hesabına Gəncəbasarda, o cümlədən Şəmkirdə yağ içində yaşayan ermənilərin simasızlığını, xəyanətini və insanlığa sığmayan münasibətlərini eşitdikcə, onların eybəcər və namərd xislətlərinin bir daha şahidi olursan.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

UNUDULMAYAN TARİX

# Azərbaycanda bolşevik işğalına qarşı Quba üsyanı

## Kəndlilər sovet qüvvələrinə qarşı müqavimət göstərirdilər

**Qubada 1920-ci ildə sovet işğalına qarşı üsyanlar baş qaldırdı. Həmdulla əfəndi Əfəndizadə, Qaçaq Mayıl və Cümhuriyyət ordusunun zabiti Əfəndiyevin rəhbərlik etdikləri üsyan üç həftəyə yaxın davam etdi. Üsyanın yatırılması üçün Əliheydər Qarayev və Levan Qoqoberidze bölgəyə ezam olundular. Həftələrlə davam edən qeyri-bərabər döyüşlərdən sonra üsyançılar məğlubiyyətə uğradılar.**

Quba qəzasında Küzün kəndinin əhalisi 1920-ci il avqustun 23-də silahlı üsyana qalxdı. Onlar kənddə iki milis nəfərini öldürdülər. Daha sonra isə yeni hakimiyyətə itaətsizliklərini elan etdilər.

Üsyanı yatırmaq üçün kəndə 4-cü süvari alayından 45 nəfərlik dəstə göndərildi. Həmin dəstə çoxlu itki verdi. Onlardan yalnız 6 nəfəri həyatda qala bildi. Hərbi komissar Küzün kəndində sovet hakimiyyətinin bərpa olunması üçün bir taqım və əlavə pulemyotçu göndərdi. Kənd üsyançıları ilə sovet qüvvələri arasında yenidən gərgin döyüş başladı. Əhali növbəti dəfə sovet qüvvələrinə müqavimət göstərə bildi.

Avqustun 29-da Qubanın yaxınlığında sovet qüvvələri ilə üsyançılar arasında yeni toqquşma baş verdi. 100 nəfərdən ibarət olan sovet əsgərləri xeyli itki ilə geri çəkildilər. Üsyançıların silahlı dəstəsi artıq formalaşmışdı. Cümhuriyyət ordusunun podpolkovniki Əfəndiyevin rəhbərlik etdiyi dəstədə türk zabitləri də var idi. Üsyançılar xeyli pulemyot və beşaçılan tüfəng əldə etmişdilər. Sentyabrın 3-də səhər saatlarında onlar Dəvəçi-Xaçmaza doğru irəlilədilər. Üsyançıların qarşısına 7-ci süvari dəstəsi çıxarıldı. Gərgin döyüşdən sonra sovet-bolşevik qüvvələri bu dəfə mövqelərini saxlaya bildilər. Xaçmaz yaxınlığında bolşeviklərin zirehli qatarı da dayanmışdı. Bu da onlara əlavə imkanlar yaradırdı. Üsyançılar isə elə mövqelərdə yerləşmişdilər ki, zirehli qatardakı topların atəşi onlara çatmırdı. Kəşfiyyat məlumatlarından məlum olmuşdu ki, Çərxi stansiyası ətrafında da yeni rejimlə razılaşmayan yerli əhalinin silahlı dəstəsi təşkil edilmişdi.

Güclü dəstələrdən birinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin keçmiş deputatı Həmdulla əfəndi Əfəndizadə rəhbərlik edirdi. Onun öz qardaşı Şəmsəddin Əfəndi, türk zabiti İsmayıl Əli Əfəndi, Səttar Əfəndiyev, milli ordunun zabiti Şükür bəy də üsyana başçılıq edirdilər.



Həmdulla əfəndi Əfəndizadə



Sovet rejiminə qarşı təhlükəli xarakter alan üsyanlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1920-ci il sentyabrın 9-da keçirilən plenumunda ciddi müzakirə edildi. Plenum Quba üsyanını yatırmaq üçün Ə.Qarayevi və L.Qoqoberidzeni ora ezam etmək haqqında qərar qəbul etdi. Qəzənfər Musabəyov isə Quba qəzasının fövqəladə komissarı təyin olundu.

### Üsyanlar amansızlıqla yatırıldı

Üsyanın qarşısını almaq üçün qəzanın fövqəladə komissarı Qəzənfər Musabəyov 1920-ci il sentyabrın 11-də Quba əhalisinə müraciət etdi. Bu müraciətdə qəzada baş qaldıran üsyan və onun yatırılması haqqında məlumat verilirdi. Musabəyov üsyanın daha da genişlənməsinə yol verməmək üçün sovet hakimiyyəti adından üsyançılara amnistiya elan edir və silahlarını təhvil verməyə dəvət edir. O, eyni zamanda bildirir ki, üsyan cəhdinin qarşısı hər vasitə ilə alınacaqdır.

6 minə yaxın insanın iştirak etdiyi üsyan sentyabr ayında amansızlıqla yatırıldı. Əməliyyatlarda 500 kəndli öldürüldü. Kəndlərin bəziləri mərmi atəşlərindən alışıb yandı. Üsyanın baş verdiyi kəndlər bolşeviklərin nəzarəti altına keçdi.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

UNUDULMAZLAR

# Düşmənə gözdağı olan general

**Azərbaycan hərb tarixinin şanlı səhifəsinə öz adını əbədi yazmış xalqımızın qəhrəman oğullarından biri də general-mayor Həbib bəy Səlimovdur.**



Həbib bəy Hacı Yusif oğlu Səlimov 8 fevral 1881-ci ildə İrəvanda anadan olub. İlk təhsilini İrəvan Müəllimlər Seminariyasında alıb. Atası Hacı Yusif bəy dövrünün tanınmış ziyalılarından olub, İrəvan quberniyasında məhkəmə iclasçısı işləyib. Həbib bəy 1900-cü ilin avqustunda orduya könüllü olaraq yazılıb və 156-cı Yelizavetpol (Gəncə) süvari alayında 1 il 2 ay xidmət edib. Unter-zabit rütbəsi alıb. 1902-ci ildə Tiflisdə süvari məktəbini bitirib və Üçüncü Qafqaz Atıcı Batalyonunda xidmətə başlayıb, podporuçik olub. 1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə elə həmin hərbi hissədə üçüncü rotanın komandiri təyin olunub. Sentyabrda "Müqəddəs Vladimir" ordeni ilə təltif edilib. Həbib bəy 1908-1910-cu illərdə Beşinci Qafqaz Atıcı Batalyonunun tərkibində Culfa sərhədlərində xidmət edib, məxfi tapşırıqla Tehrana göndərilib. 1912-ci ildə kapitan rütbəsi alıb və Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirib.

Azərbaycan müstəqilliyini elan etdikdən sonra geri dönən polkovnik-leytenant Həbib bəy Səlimov Milli Orduda Dəftərxana rəisi vəzifəsində çalışmışdır. Hərbi işi gözəl bildiyinə görə az sonra Nuru Paşa tərəfindən Əlahiddə Azərbaycan Korpusunun Qərargah rəisi vəzifəsinə təyin edilmiş və Azərbaycan Ordusunun 1918-ci ildə Gəncədən Bakıyaqədərki yürüşündə Cənub qrupunun komandanı olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun Dəftərxana rəisliyi ilə yanaşı, Azərbaycan Korpusunun Baş Qərargah rəisi və Baş Ərkan-i Hərbin rəhbəri vəzifəsində çalışmışdır. Qısa müddətdə Lənkəranın valisi olmuşdur.

Həbib bəy Səlimova 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə Bakının azad edilməsindəki xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir.

O, 1920-ci ilin martında Əskəran müharibəsi adı ilə məşhur olan döyüşlərin qəhrəmanı olmuşdur. 1918-ci ilin may ayında Azərbaycan öz müstəqilliyini elan edib Türkiyədən hərbi yardım istəyəndə Şaumyan və onun məsləkdaşları yaxşı anlayırdılar ki, Qafqaz İslam Ordusu Azərbaycanda əl-qol açarsa, onlar öz mənfur niyyətlərini reallaşdıra bilməyəcəklər... Bu zaman erməni cəlladının sərəncamında 18 mindən çox yaxşı silahlandırılmış döyüşçü var idi. Bunun da 70 faizindən çoxunu - 13 min əsgər və zabitini ermənilər təşkil edirdilər. Eyni zamanda Rusiya tərəfindən göndərilən hərbi yardımların da ardı-arası kəsilmirdi. 1918-ci ilin iyun ayının elə ilk günlərində Rusiyadan 12 ədəd dörddüyməlik top, onun ekipajı və təchizatı yüklənmiş olan qatar Bakıya yola salınmışdı. Tula Silah Zavodundan da xeyli sayda pulemyot, tüfəng, patron göndərilmişdi. Kifayət qədər qüvvə və ehtiyat yaradıldıqdan sonra Bakı Xalq Komissarları Sovetinin Hərbi İşlər üzrə komissarı Q.Korqanov 1918-ci il iyunun 4-də 1-ci Qafqaz Qırmızı Korpusunun Zaqafqaziya dəmir yolu boyunca Hacıqabuldan qərbə doğru hücuma keçməsi barədə 8 saylı əmr imzalamışdı. Bu əmrlə 1-ci Briqadanın komissarı A.Quloyan, 2-ci Briqadanın komissarı Ter Sarkisov, 3-cü Briqadanın komissarı A.Qabişev, Artilleriya Qüvvələri komissarı T.Şaumyan təsdiq edilmişlər.

1918-ci il iyunun 10-da Bakı Sovetinin 13 min əsgəri Cənubi Qafqaz dəmir yolu ilə Hacıqabul-Kürdəmir-Müsüslü istiqamətində irəlilədi. Daşnak-bolşevik qüvvələri demək olar ki, çox asanlıqla Kürdəmir-Ucar hüdudlarına qədər gəldilər. Bu zaman Ucar rayonunun Müsüslü kəndinin ərazisində yerləşən milli qüvvələrə Həbib bəy Səlimov rəhbərlik edirdi... Düşmənin dəmir yolu boyunca sürətlə irəliləməsinin qarşısının alınıb geri oturdulub sonradan sentyabrın 15-də Bakının azad edilməsində Həbib bəy Səlimovun müstəsna xidməti və sərkərdəlik qabiliyyəti inkarolunmazdır. Daha sonra 1919-cu ilin iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda milli hökuməti tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edildi.

1920-ci ilin martında və aprelində Qarabağda ermənilər Drastamat Kanayanın rəhbərliyi ilə üsyana qalxırlar. Azərbaycan Xalq Cümhuriyyəti Ordusu Həbib bəy Səlimovun rəhbərliyi ilə bu üsyanı yatırmaq üçün Qarabağa göndərilir. Əskəran keçidini tutan üsyançılar Azərbaycanın digər əraziləri ilə Dağlıq Qarabağın əlaqə yolunu da kəsmişdilər. Həbib bəy Səlimovun hərbi zəkası və çalışqanlığı nəticəsində ermənilərin üsyanı yatırılır və bu mənfur millət layiq olduğu cəzanı alır.

General Həbib bəy Səlimov 1918-1920-ci illərdə milli ordumuzda xidmət edən, milliyyətcə Litva tatarı olan general-leytenant Məmməd bəy Sulkeviçdən sonra ikinci generaldır ki, ali hərbi təhsili vardı.

General H.Səlimov butun ruhu-canı ilə xalqına, dövlətinə bağlı əsl Azərbaycan zabiti idi. Buna görə 1918-1920-ci illərdə o, xeyli düşmən də qazanmışdı. Bir tərəfdən, cildini dəyişib bolşevik qiyafəsi geymiş daşnaklar, bir tərəfdən də, milli satqınlarımız Həbib bəy Səlimovu məhv etmək üçün məqam gözləyirdilər. Bu fürsət onların əlinə Azərbaycan Qızıl ordu tərəfindən işğal olunduqdan sonra düşdü. Həbib bəy Səlimov saxta ittihamlarla həbs edildi.

General Həbib bəy Səlimovun ittihamlarında yazılırdı ki, Tiflisdə və Bakıda xüsusi təşkilat fəaliyyət göstərir. Onlar üsyana hazırlaşırlar. Tiflis və Batumda əks-inqilabçılara general Vrangel general H.Səlimov vasitəsilə silah göndərir. Bakı quberniyasının Cavad qəzası İranın Şahsevən quldurlarının köməyi ilə üsyana hazırlaşır, köməyi general Səlimovdan alırlar. Səlimovun düşmənləri işlərini ehtiyatlı tutmuşdular. İttihamlara general Səlimovun peşəsinə heç bir dəxli olmayan ticarət malı gətirməsi də əlavə olunmuşdu. Məqsəd Vrangeldən üsyana hazırlıq üçün hərbi yardım aldığı "sübut" olunmasa, generalı "tacir"kimi həbs etmək idi.

Üç ay yarım həbsxanada üzərinə oxunan yalançı ittihamları və üzləşmələri yazılı şəkildə rədd edən milli ordu generalı Həbib bəy Səlimovu güllələmək üçün "İran məsələsi", 1919-cu ildə Lənkəran yürüşündə yerli Muğan əhalisini, guya, soyub-talaması, ağqvardiyaçı praporşik Dubininlə, Nuru Paşa və Zeynalovla əlaqəsi, Cümhuriyyət vaxtı sovet hökumətinə nifrəti, sovet vaxtı Naxçıvanda xan və bəylərlə oturub-durması bolşeviklərin əlində daha "əsaslı" faktlar oldu.

Həmin vaxtlarda Naxçıvandan mərkəzə Az. ÇK-nın mühüm şöbə katibinin tarixsiz və imzasız danos-məktubu general-mayor Həbib bəy Səlimovun cavan ömrünə son qoymaq üçün canfəşanlıqla təşkil olunurdu.

Danos-məktubda oxuyuruq: "Əks-inqilabçı general Həbib bəy Səlimov Naxçıvan əhalisi arasında şayiələr yayır, xan və bəylərlə sovet hökumətinin əleyhinə işləyir. O, ilk dəfə Naxçıvana gələndə İnqilabçı Türk hökumətinə məktub göndərib ki, yerli Azərbaycan əhalisi Qızıl ordu tərəfindən əzilib qul halına salınır. Bu məktubu barədə general H. Səlimovun özü bizimlə birgə işləyən ermənilərlə söhbətində açıq deyib. O, İranda da buradan qaçıb getmiş xan və bəylərlə oturub-dururmuş. Onun belə yaramaz hərəkətlərinə dözmək mümkün deyil. Xahiş edirik, onu buradan Bakıya göndərəsiniz".

Belə uydurma ittihamlarla 1920-ci il dekabrın 30-da, saat 10:30-da bolşeviklər Həbib bəy Səlimovu güllələdilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Qəhrəman övladlarının Şuşaya incəsənət töhfəsi






"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə şəhid övladlarının "Zəfər" Yay Məktəbi öz bağlanış mərasimini mədəniyyət paytaxtı doğma Şuşada yekunlaşdırıb.

AZƏRTAC xəbər verir ki, layihə müddətində məktəbli şəhid övladları 4 peşə-musiqi, rəsm, fotoqrafiya və aktyorluq üzrə öz bilik və bacarıqlarını inkişaf etdiriblər. İyul- avqust ayları ərzində davam edən musiqi təlimlərini şəhid pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin həyat yoldaşı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Hüseynova tədris edib. O, bu müddət ərzində uşaqlara kifayət qədər geniş və əhatəli proqram öyrədib, onlara həm vokal, həm də fortepiano üzrə vətənpərvərlik ruhunda əsərləri yüksək səviyyədə mənimsəməyə yardımçı olub. Belə ki, onlar dahi Üzeyir Hacıbəylinin "Azərbaycan Dövlət Himni" " Çırpınırdı Qara dəniz", M.Maqomayevin "Azərbaycan", Cavanşir Quliyevin "Əsgər marşı", Könül Hüseynovanın müəllifi olduğu, məhz şəhid övladlarına həsr etdiyi və ilk dəfə təqdim olunan "Qəhrəman övladıyıq" mahnısını və bir çox başqa əsərləri yekun konsertdə təqdim ediblər.

Bu layihə boyunca musiqi təlimləri Xalq artisti Fidan Hacıyevanın Vokal Musiqi Məktəbində keçirilib və Fidan xanım öz tövsiyələrini uşaqlardan əsirgəməyib. Konsert zamanı isə Könül Hüseynovanın rəhbərliyi ilə yaradılmış şəhid övladlarından ibarət "Qəhrəman övladları" uşaq xoru Xalq artistləri Fidan Hacıyeva və Samir Cəfərovla Könül Hüseynovanın müəllifi olduğu "Yenilməzsən Azərbaycan", sözləri Xalq şairi Vahid Əzizə məxsus " Şuşam mənim", "Yuxunda görmüsən" əsərlərini böyük şövqlə ifa ediblər.

Konsertdən bir gün əvvəl böyük sənətkar Bülbülün ev-muzeyində tamaşaçılara "Qəhrəman övladları" xorunun Xalq artisti Samir Cəfərovla kiçik konsert proqramı da təqdim olunub. Konsertdə solist qismində şəhid pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin övladı Turqut Atakişiyev, şəhid polkovnik-leytenant Babək Ramaldanovun övladları Süleyman və Ramaldan Ramaldanovlar, şəhid polkovnik Vüqar Yusifovun övladı Ayan Yusifzadə, şəhid mayor Elsevər Paşayevin övladı Nəzrin Paşayeva və digər qəhrəman şəhid övladları uğurla çıxış ediblər.

Bağlanış mərasimində Əməkdar artist Şövqi Məmmədovun rəhbərlik etdiyi aktyorluq qrupunun hazırladığı səhnəcik, fotoqrafiya üzrə təlimçi Orxan Əzimin tələbələrinin foto və rəsm üzrə təlimçi Məryəm Axundovanın tələbələrinin Şuşa mövzusundakı maraqlı rəsm əsərləri də tamaşaçılara təqdim olunub.

Xalq rəssamı Arif Hüseynov, Əməkdar artist Gülzar Qurbanova istedadlı şəhid övladlarının rəsm və aktyorluq qabiliyyətlərini yüksək qiymətləndiriblər.

Tədbirin rəsmi hissəsində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, ombudsman Səbinə Əliyeva, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, "Bank Respublika" ASC-nin İdarə Heyətinin sədri Tariyel İsmayılov çıxış edərək bu layihənin şəhid övladlarımızın inkişafındakı əhəmiyyətini yüksək qiymətləndiriblər. Bildirilib ki, belə layihələr şəhid övladlarının incəsənət yönümündə inkişafına, onlarda Vətənə məhəbbət hisslərinin formalaşmasında böyük rol oynayır.

# Hərbi qulluqçular arasında səmti müəyyənetmə yarışı keçirilib

Quru Qoşunlarının 2022-ci tədris ilinə hazırlıq planına əsasən hərbi qulluqçular arasında səmti müəyyənetmə yarışı keçirilib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Yarışa start verilməmişdən öncə hərbi qulluqçular təlimatlandırılıb. Qeyd olunub ki, birinciliyin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların dözümlülüyünü artırmaq, onların kompas və xəritədən istifadəetmə bacarıqlarını təkmilləşdirməkdir.

Yarışlarda 7 komandanın 38 hərbi qulluqçusu mübarizə aparıb. İştirakçılar təyin olunan məsafəyə qaçış edərək xəritə üzərində göstərilən hədəflərin aşkarlanması tapşırıqlarını yerinə yetiriblər. Yarışın qaydalarına əsasən kişi hərbi qulluqçular 4 kilometr məsafədə 10 nəzarət nöqtəsini, qadın hərbi qulluqçular isə 3 kilometr məsafədə 8 nəzarət nöqtəsini müəyyənləşdiriblər.

Quru Qoşunlarının və Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının hakimlər komissiyasının üzvləri yarışın yekun nəticələrinə əsasən qalibləri müəyyən edib.

Qaliblər fəxri fərman, kubok və medallarla mükafatlandırılıblar.

# Sinoptiklər xəbərdarlıq edir

**25 gün davam edən isti və quraq hava şəraitindən sonra ölkə ərazisində hava şəraitinin dəyişəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişəcək. Proses sentyabrın 5-də şimal küləyinin güclənməsi ilə başlayacaq. Küləyin maksimal sürəti 15-20 m/s, bəzi yerlərdə arabir 25-30 m/s olacaq. Küləkli hava şəraiti sentyabrın 7-si gündüzədək davam edəcək.

Havanın temperaturu tədricən 8-10° aşağı enəcək. Sentyabrın 6-sı gündüzdən sentyabrın 8-i səhərədək fasilələrlə yağış yağacağı ehtimalı var.

Azərbaycanın rayonlarında sentyabrın 5-dən başlayaraq əvvəl Böyük Qafqazın bəzi yerlərində, sentyabrın 6-dan sentyabrın 8-i gündüzədək isə əksər rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir.

Gözlənilən yağıntılarla əlaqədar çaylarda sululuğun artacağı ehtimal olunur. Qərb küləyi arabir 18-23 m/s, əsasən Kür vadisi rayonlarında arabir 25-30 m/s olacaq. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-10° aşağı enəcək.





## OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 07.09.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Dünyada 244 milyon uşaq məktəbə gedə bilməyib

BMT-nin Elm, Təhsil və Mədəniyyət Fondu həyəcan təbili çalaraq beynəlxalq təşkilatlara müraciət edib

Boş sinif otaqları və dağılmış məktəblər - Ukraynanın bir sıra regionlarında yeni tədris ili belə başlayıb. Müharibə və dağıntılara bürünmüş dünyanın bəzi ölkələrində də oxşar vəziyyət hökm sürür.





Bir çox ölkələrdə sentyabrın 1-də yeni dərs ili başlayıb, lakin müharibələr, zorakılıqlar, təbii fəlakətlər, yoxsulluq və bərabərsizlik səbəbindən 6 yaşdan 18 yaşa qədər 244 milyon uşaq və yeniyetmə təhsildən kənarda qalıb. Vəziyyət COVID-19 pandemiyasının təsirləri ilə əlaqədar daha da ağırlaşıb.

Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət Fondunun baş direktoru Odri Azule beynəlxalq ictimaiyyəti hər bir uşağın təhsilə çıxışını təmin etmək üçün səyləri səfərbər etməyə çağırıb: "Dünyanın bir çox ölkəsində yeni dərs ili başlayıb. Bu hadisə sevinclə dolmalıdır. Amma bu, bizə xatırladır ki, dünya təhsilə çıxışda bərabərsizliklərlə doludur - 244 milyon uşaq hələ də məktəbə getmir. Mövcud vəziyyəti qəbul edə bilmərik. Təhsil hüquqdur və biz bu hüquqa hörmət edilməsi üçün hər şeyi etməliyik".

### Təhsildən kənarda qalanların çoxu Afrika sakinləridir

UNESCO-dan verilən məlumata görə, məktəbə getməyən uşaqların ən çoxu Afrikanın cənubundakı Saharada yaşayır. Orada 98 milyon qız və oğlan təhsil almaq imkanından məhrumdur. Mərkəzi və Cənubi Asiyada 85 milyon uşaq məktəbə getmir.

UNESCO narahatdır ki, belə göstəricilərlə beynəlxalq ictimaiyyət üçün 2030-cu ilə qədər "hamı üçün keyfiyyətli təhsil" nəzərdə tutan Dayanıqlı İnkişaf Məqsədinə çatmaq çətin olacaq. Yeni münaqişələr və davam edən koronavirus pandemiyası səbəbindən bu sahədə proqnozlar pisləşir. Pandemiyanın pik dövründə 1,6 milyarda yaxın məktəbli və tələbə təhsillərini yarımçıq qoymağa məcbur olub.

COVID-19 pandemiyası səbəbindən məktəblərin bağlanması tədris prosesində əhəmiyyətli boşluqlara gətirib çıxarıb. Aşağı və orta gəlirli ölkələrdə 10 yaşlı uşaqların 70 faizi mətni düz oxuya bilmir. Halbuki 2019-cu ildə bu rəqəm 57 faiz təşkil edirdi. Əlavə dəstək tədbirləri olmasa, məktəblilər ciddi çətinliklərlə üzləşəcəklər.

2020-ci ilin əvvəlində, pandemiyadan öncə 259 milyon uşaq məktəbə getmirdi ki, bu da məktəbli yaş qrupunda olan dünya əhalisinin altıda birini təşkil edirdi. Bundan əlavə, böyüklər arasında 770 milyondan çox adam oxuya və yaza bilmir. Onların da üçdəikisi qadınlardır ki, bu da davamlı bərabərsizlikləri əks etdirir. Pandemiya isə bu sahədə vəziyyəti daha da gərginləşdirib.

### Böhran şəraitində öyrənmək istəyi

BMT-nin Beynəlxalq Uşaq Fondunun icraçı direktoru Ketrin Rassel isə ən çətin şəraitdə belə uşaqların maarifləndirilməsinin zəruriliyini xatırladıb. Bununla əlaqədar xanım Rassel deyir: "Qaçqın düşərgələrində müvəqqəti məktəblərə gedən uşaqları və ya məktəbə gedə bilməyəcəkləri yerlərdə yaşayan və qeyri-formal təhsil alan qızları, yaxud ən böyük təcriddə olan əlil uşaqları həmyaşıdları ilə birgə sinifdə görən hər kəs onların sevincini və öyrənmək istəyini görür".

Təəssüf ki, təhsil almaq və ya iş tapmaq imkanının olmaması çox vaxt gənclərin radikallaşmasına səbəb olur.

### Təhsildə Transformasiya Sammiti

Sentyabrın 19-da BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında Təhsildə Transformasiya Sammiti keçiriləcək. Qeyd edilir ki, təhsil ən mühüm ictimai sərvətlərdən biridir və Davamlı İnkişaf üçün 2030-cu ilə qədər bütün Gündəliyin həyata keçirilməsi üçün vacib vasitədir.

Təhsildə Transformasiya Sammiti dünya liderlərinin, gənclərin və təhsillə məşğul olan bütün maraqlı tərəflərin bu mühüm məsələləri həll etmək üçün bir araya gəldiyi ilk tədbir olacaq.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Aydın Əliyev Dövlət Gömrük Komitəsinin sədr müavini Əsgər Abdullayevə əzizi

**RAUF ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:* secretary@azerbaijan-news.az az.reklam@mail.ru azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6461
Sifariş 2453
Qiymәti 40 qəpik